BDU ilə ADNA müqavilə imzaladı
səh. 2



Abel Məhərrəmov ukraynalı həmkarını qəbul edib
səh. 2

Almaniyadan gələn qonaqlarla görüş
səh. 2


Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
**Təsisçi:** Bakı Dövlət Universiteti

№ 11 (1419) 05 oktyabr 2011-ci il


## POÇT QUTUSU
səh. 2

**Hüquq fakültəsinin I kurs tələbələri ilə görüş**
səh. 2

**"İKT Modeli" layihəsi**

*«İƏT Modeli - beynəlxalq təhsil layihəsi"nin yeni mərhələsi başlayacaq*
səh. 3

**Erciyes Universiteti ilə anlaşma memorandumu imzalanıb**
səh. 3

**BDU-da Avropa Komissiyasının 7-ci Çərçivə Proqramı əsasında treninqlər başlayıb**
səh. 3

**BDU İLƏ RENMİN UNİVERSİTETİ ARASINDA MEMORANDUM İMZALANIB**
səh. 3

## EKOLOGİYA və TORPAQŞÜNASLIQ FAKÜLTƏSİ

Son zamanlar ətraf mühitin, torpağın, bitki və heyvanat aləminin ekoloji baxımdan öyrənilməsi vacib tələblərdən birinə çevrilib. Bu baxımdan respublikamızda da yüksək ixtisaslı ekoloq kadrların hazırlanmasına böyük zərurət var...
səh. 5

**Kür və Araz çaylarında çirkləndiricilər normadan artıqdır**
səh. 5

**Görüş yerindən reportaj**
səh. 6

# BEYNƏLXALQ MÜƏLLİMLƏR GÜNÜ

## 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür



**Bu tarixin qeyd edilməsinə dair qərarı ilk dəfə 1966-cı il oktyabrın 5-də YUNESKO verib. Dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-də müəllimlər peşə bayramını qeyd edirlər. Azərbaycanda da bu tarix qeyd olunur.**

Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən gözəl peşədir. Hər birimizin layiqli vətəndaş kimi yetişməyimizdə müəllimlərimizin əvəzsiz xidmətləri olmuşdur.

Ümummilli lider Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirib, müəllim haqqında xoş sözlər söyləyib. Azərbaycan müəllimlərinin ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik insanlar olduğunu söyləmiş ümummilli lider deyirdi: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmişdir və öyrədir".

Müəllim adını həmişə uca tutan Prezident İlham Əliyev onlara qayğı ilə yanaşmış, hər il olduğu kimi bu il də təhsil işçilərinin təltif edilməsi haqqında sərəncam imzalamışdır.

**Bayramınız mübarək, əziz müəllimlər!**

**ABBAS ZAMANOV HAQQINDA XATİRƏLƏR**
səh. 4

**"Metroda kitab oxuyan gəncləri görəndə sevinirəm"**
səh. 6

**Birincilərlə görüş**
səh. 7

**Özfəaliyyət kollektivlərinin uğurları**
səh. 8

## Prezident təqaüdçülərimiz

Hər il olduğu kimi, bu il də ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayaraq Prezident təqaüdçüsü adını qazanmış gənclərin bəziləri Bakı Dövlət Universitetini seçiblər. "Bakı Universiteti" qəzeti həmin tələbələri yaxından tanıtmaq məqsədilə onlar haqqında yazını təqdim edir:
səh. 7

**"Gənc istedadlar" liseyində Bilik günü qeyd olundu**
səh. 3

**İBRƏTAMİZ HEKAYƏ**
səh. 8

**BDU kitabxanası - yeni nəşrlər**
səh. 8

# POÇT QUTUSU

**Bakı Dövlət Universitetinin rektoru akademik Abel Məhərrəmova**

**M Ü R A C İ Ə T**

Hörmətli Abel müəllim!

“Dünya Azərbaycanlılar” İctimai Mərkəzi respublikada “Qızıl Buta” mükafatı uğrunda respondentlər arasında sorğular keçirmişdir.

Sorğunun rəsmi nəticələrinə görə, Siz “Azərbaycan elminin təbliği və inkişafında xidmətlərinizə görə ”Qızıl Buta” mükafatına layiq görülmüsünüz.

Hörmətli Abel müəllim!

Sizi səmimi qəlbdən təbrik edir, mükafatı təqdim etmək üçün məni qəbul etməyinizi xahiş edirəm.

Əvvəlcədən təşəkkür edirəm!

***Zaur Mirzə-zadə***
*“Dünya Azərbaycanlılar” İctimai Mərkəzinin sədri*

* * *

**Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmova**

Hörmətli Abel müəllim!

Bildiyiniz kimi, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) təşkilatçılığı və Azərbaycan Respublikası XİN, Gənclər və İdman Nazirliyi, Diplomatik Akademiya və Bakı Dövlət Universitetinin tərəfdaşlığı ilə həyata keçirilən “İslam Konfransı Təşkilatı (İKT) Modeli - beynəlxalq təhsil layihəsi” uğurla sona yetmişdir.

Bu ilin aprel ayının 1-dən start verilən layihənin birinci mərhələsində Bakı ali məktəblərinin 130-dan artıq tələbəsi 6 həftə ərzində İKT-nin tarixi, strukturu, prinsipləri, müxtəlif qlobal mövzular üzrə konsepsiyaları ilə tanış olmuşdur. İKT ölkələrinin Bakı şəhərində akkreditə olunmuş səfirləri, səfirlik əməkdaşları, müxtəlif beynəlxalq və yerli dövlət qurumlarının aparıcı mütəxəssisləri müvafiq mövzular üzrə tələbələrə 12 mühazirə oxumuşlar. Yekun olaraq ölkə üzrə “İKT Sammiti Modeli” isə 24 may 2011-ci il tarixində “Avropa” otelində keçirilmişdir. Model tədbiri zamanı qalib olmuş 5 nəfər tələbə bu ilin 11-17 iyul tarixlərində İstanbul şəhərinin Sabançı Universitetində keçirilmiş ilk beynəlxalq “İKT Sammiti Modeli”ndə iştirak etmək üçün seçilmişdir.

Proqram çərçivəsində mühazirələrin Bakı Dövlət Universitetinin auditoriyalarında keçirilməsinə yaratdığınız şəraiti, BDU tələbələrinin məşğələlərdə xüsusi aktivliyi və rəhbərlik etdiyiniz universitetin proqram üzrə tərəfdaş olmasını nəzərə alaraq, Sizə bir daha dərin təşəkkürümüzü bildirir və gələcəkdə bu cür layihələrdə BDU ilə əməkdaşlıq edəcəyimizə ümid edirik.

Eyni zamanda bildirmək istərdik ki, Türkiyənin Sabançı Universitetində dünyanın 37 ölkəsindən gəlmiş 200 nəfərdən artıq gənc liderlərin iştirakı, Türkiyə XİN, İslam Əməkdaşlıq Təşkilatı, Misir Sivilizasiyaların Araşdırılması İnstitutu və İstanbul Tuzla bələdiyyəsinin partnyorluğu ilə keçirilən ilk beynəlxalq “İKT Sammiti Modeli”nin sonunda beynəlxalq ekspertlərdən ibarət jürinin yekun qərarına görə Azərbaycanı təmsil edən 5 nəfərlik qrup 2-ci yer tutmuşdur. Sevindirici haldır ki, həmin qrupun 3 üzvü məhz BDU tələbəsi olmuş və həmin üzvlər - BDU-nun sosial elmlər və psixolologiya fakültəsinin tələbələri: Elçin Hüseynov, Rəna Nəsirova və Aygün Şirinova xüsusi fəallıq göstərmiş və mükafatlarla təltif olunmuşlar. Bununla bağlı Sizi bir daha təbrik edir və rəhbərlik etdiyiniz universitetlə gələcəkdə bu istiqamətdə əməkdaşlıq etməyə bir daha hazır olduğumuzu bildiririk.

Hörmətlə,

**Elçin Əsgərov**
*DƏ-İKGF Avrasiya Beynəlxalq Məşvərət Şurasının sədri, filologiya elmləri doktoru*

# Hüquq fakültəsinin I kurs tələbələri ilə görüş



Sentyabrın 27-də rektor, akademik Abel Məhərrəmov bu il hüquq fakültəsinə qəbul olmuş tələbələrlə görüşüb. Rektor birinciləri tələbə adını qazanmaları münasibətilə təbrik edib. Bildirib ki, universitet yetkin bir insanın təhsil aldığı müəssisədir və burada böyük həvəslə oxuyub, seçdiyin ixtisasın peşəkarı olmağa çalışmaq lazımdır. Rektor bu günlərdə BDU-nun dünyanın 700 ən yaxşı universiteti siyahısına daxil olduğunu da tələbələrin nəzərinə çatdırıb. Akademik Abel Məhərrəmov tələbəri ingilis dilini öyrənməyə, informasiya-kommunikasiya texnologiyalarına da yiyələnməyə çağırıb. Rektor yenicə tələbə adını qazanmışlara mənalı, məntiqli tələbəlik həyatı keçirməyi arzulayıb.

Qeyd edək ki, bu il universitetin hüquq fakültəsinə 350 tələbə qəbul olub. Onlardan 131 nəfəri 600-dən yuxarı bal toplayıb, 7 nəfəri isə Prezident təqaüdçüsüdür.

# BDU ilə ADNA müqavilə imzaladı

**Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Neft Akademiyası arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləni rektor, akademik Abel Məhərrəmov və ADNA-nın rektoru, professor Siyavuş Qarayev imzalayıblar.**



İki təhsil ocağı arasında uzun illər əməkdaşlıq edildiyini, lakin əməkdaşlığın bu zamana kimi rəsmiləşdirilmədiyini deyən akademik Abel Məhərrəmov dövlətin təhsil və elmə qayğısından danışıb. Müqavilənin əsas strategiyasının tələbələrin mobilliyinin artmasına imkan yaratmaq olduğunu bildirən rektor deyib ki, qlobal cəmiyyətə inteqrasiya etmədən öncə daxilə inteqrasiya etmək daha vacibdir. Rektorun sözlərindən məlum olub ki, müqaviləyə əsasən Boloniya prosesinə uyğun olaraq tələbələrin mübadiləsi və kreditlərin alınması, pedaqoji və elmi işçilərin, doktorantların müvafiq fakültələrdə, kafedralarda və tədqiqat laboratoriyalarında staj keçməsinin təşkili, yeni texnika və texnologiyaların mübadiləsi, qabaqcıl inkişaf metodları sahəsində təcrübə mübadiləsi, ikitərəfli birgə elmi simpozium, seminar və konfransların təşkili, qarşılıqlı maraq doğuran layihə və proqramlarda tərəflərin birgə iştirakı nəzərdə tutulub.

ADNA-nın rektoru, professor Siyavuş Qarayev də müqavilənin əhəmiyyətindən və perspektivlərindən danışıb. O deyib ki, müqaviləyə əsasən BDU-nun və ADNA-nın tələbələri hər iki ali təhsil ocağında müvafiq ixtisaslar üzrə oxuyub kredit ala biləcəklər.

Hər iki ali təhsil ocağının rektorları sonda qeyd edilər ki, BDU və ADNA arasında imzalanan bu müqavilə Azərbaycan elminə, təhsilinə böyük dəstək və töhfələr verəcək.

# Almaniyadan gələn qonaqlarla görüş



Sentyabrın 26-da rektor, akademik Abel Məhərrəmov Almaniyanın Manheym Universitetinin Molekulyar və Hüceyrə İnstitutunun direktoru, Manheym Tədqiqi Elmlər Universiteti biotexnologiya fakültəsinin dekan əvəzi, Almaniya Akkreditasiya Mərkəzinin üzvü Mathias Hafner və Heydelberq Universiteti Manheym tibb fakültəsinin tədqiqat qrupunun rəhbəri Ralf Cesenofskini qəbul edib.

Görüşdə BDU-nun yaranma və inkişaf tarixi haqqında qonaqlara məlumat verən rektor Abel Məhərrəmov onun beynəlxalq əlaqələrindən, Almaniya universitetləri ilə əməkdaşlıqdan, tibb və biotexnologiya sahəsində münasibətlərin qurulmasından bəhs edib. Rektor universitetlərin daha sıx və səmərəli fəaliyyət göstərməri üçün birgə proqram və layihələrin hazırlanmasının əhəmiyyətini də qeyd edib.

Məlum olub ki, qonaqlar BDU ilə daha geniş əlaqələr qurmaq niyyəti ilə universitetdə molekulyar genetikaya aid 5 günlük treninq keçirəcəklər.

Qonaqlar bildiriblər ki, bu sahələrin daha da inkişafı üçün əlaqələrin qurulması, dərinləşməsi, irəli sürülən təkliflərin reallaşması üçün əllərindən gələni əsirgəməyəcəklər.

Qarşılıqlı maraq doğuran digər məsələlərin də müzakirə edildiyi görüşdə Manheym Universitetinin azərbaycanlı tələbə və tədqiqatçılarının rəhbəri Vüqar Yaqublu da iştirak edib.

Qonaqlar universitetin biologiya fakültəsinin İmmunologiya laboratoriyası, molekulyar biologiya sahəsində qrant hesabına Vestminister Universiteti ilə birgə açılmış Distant təhsil laboratoriyası və kimya fakültəsinin Nanotexnologiya Mərkəzi və digər qurumları ilə tanış olublar.

# “Molekulyar genetikada yeniliklər”

Gənc mütəxəssislər üçün molekulyar genetika üzrə təlim kursu keçirildi. Təlim Alman Akademik Mübadilə Xidməti (DAAD), Heydelberq Universitetinin Manheym tibb fakültəsi (UMM) və Bakı Dövlət Universiteti tərəfindən təşkil edilmişdi. 5 gün davam edən təlimdə sözügedən sahələr üzrə yeni elmi metodologiyaların öyrənilməsi və bir sıra praktik çalışmaların yerinə yetirilməsi nəzərdə tutulmuşdu.

Təlimlərin çox böyük faydası oldu. Belə ki, keçirilən görüşlər zamanı əsas genetik anlayışlar, laborator üsullar, nümunə analizi və kompyuter əsaslı üsullar haqqında ətraflı məlumatlar verildi. Bu üsullar zəncirvari polimeraza reaksiyası (PCR), klonlaşdırma, microarray və RNT-nin parçalanması kimi mövzuları əhatə etdi. Bununla yanaşı, iştirakçılara müəyyən sərbəst mövzu seçmək imkanı verilmişdi ki, təlimçilər bu barədə çıxış və müzakirələr etdilər.

Qeyd edək ki, əməkdaşlığın əhəmiyyətini və ilkin öhdəlikləri müzakirə etmək məqsədilə beynəlxalq əlaqələr üzrə prorektor Şəlalə Məmmədova, Manheym Azərbaycan Həkimlər Assosasiyasının rəhbəri Vüqar Yaqublu və millət vəkili, Genetika kafedrasının professoru Kamilə Əliyeva birgə görüş keçirmişdilər.

Şəlalə xanım layihə çərçivəsində magistrant və doktorantların Almaniyada təcrübə keçməsi üçün yaradılacaq bu şansı yüksək dəyərləndirdiyini və gələcəkdə genetika fakültəsində layihənin dəstəyi ilə yaradılacaq laboratoriyanın zəruriliyini qeyd edərək bildirdi ki, Beynəlxalq əlaqələr şöbəsi təhsil standartlarını daha da mükəmməlləşdirmək məqsədilə innovativ tədrisin tətbiqinə yönələn istənilən layihəyə açıqdır.

Kamilə xanım isə öz növbəsində fakültədəki mövcud şəraitdən bəhs edərək bildirdi ki, fakültənin professoru kimi tələbələrə dəstək verməyə hər zaman hazırdır.

Yaradılan şəraitə və maraq göstərdiklərinə görə universitet rəhbərliyinə təlim təşkilatçısı kimi təşəkkür edən Vüqar Yaqublu bildirdi ki, layihənin uzaq məqsədi iştirakçılar və adıçəkilən fakültələr arasında əlaqənin qurulması və yeni layihələrin inkişafina dəstək qazanılmasıdır. Gələcəkdə yeni təlim təşəbbüsləri və elmi əməkdaşlığın möhkəmləndirilməsi üzərində çalışma və regional elmi layihələrin inkişaf etdirilməsinin əsas hədəflərdən biri olduğu vurğulandı.

**Fidan Əzməmmədova,**
*beynəlxalq proqramlar üzrə mütəxəssis*

# Abel Məhərrəmov ukraynalı həmkarını qəbul edib



Sentyabrın 28-də rektor, akademik Abel Məhərrəmov O.Qonçar adına Dnepropetrovsk Milli Univeristetinin rektoru Nikolay Viktoroviç Polyakovu və elmi-pedaqoji iş üzrə prorektoru Sergey Aleksandroviç Çernetskini qəbul edib. Universitet haqqında qonaqlara ətraflı məlumat verən rektor Abel Məhərrəmov, əsasən onun beynəlxalq əlaqələrindən danışıb. O.Qonçar adına Dnepropetrovsk Milli Univeristetinin rektoru Nikolay Viktoroviç Polyakov Bakı Dövlət Universiteti ilə əməkdaşlığın səmərəli nəticələr verəcəyini qeyd edib. Görüşün nəticəsi olaraq universitetlər arasında anlaşma memorandumu imzalanıb. Memorandum tədqiqatçı, aspirant və magistrlərin mübadiləsi, müəllimlərin ixtisaslarının artırılmasına qarşılıqlı yardım, qabaqcıl inkişaf metodları sahəsində təcrübə mübadiləsi, ikitərəfli birgə elmi simpozium, seminar və konfransların təşkili, qarşılıqlı maraq doğuran layihə və proqramlarda tərəflərin birgə iştirakını nəzərdə tutur. İmzalanma mərasimindən sonra akademik Abel Məhərrəmov memorandumun kağız üzərində qalmayacağını, təhsil və elmin inkişafı baxımından səmərəli olacağını qeyd edib. Universitetlə tanış olan ukraynalı qonaqlar xoş təəssüratla ayrılıblar.

**Mətbuat və İnformasiya şöbəsi**

## Erciyes Universiteti ilə anlaşma memorandumu imzalanıb

**Oktyabrın 4-də rektor akademik Abel Məhərrəmov Türkiyənin Erciyes Universitetinin rektoru, professor Fahrettin Keleştemurun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Universitet haqqında qonaqlara ətraflı məlumat verən rektor Abel Məhərrəmov əsasən onun beynəlxalq əlaqələrindən danışıb.**



Erciyes Universitetinin rektoru Fahrettin Keleştemur rəhbərlik etdiyi universitet haqqında məlumat verib. Məlum olub ki, Türkiyənin öndə gələn və ən seçmə təhsil müəssisələrindən biri olan Erciyes Universitetinin 16 fakültəsi, çoxsaylı qurum və mərkəzləri var. F.Keleştemur dünyanın bir çox universitetləri ilə əməkdaşlıq edən Erciyes Universitetinin Bakı Dövlət Universiteti ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirib. Görüşün nəticəsi olaraq univeristetlər arasında anlaşma memorandumu imzalanıb. Memorandum tədqiqatçı, aspirant və magistrlərin mübadiləsi, ikitərəfli elmi simpozium, seminar və konfransların təşkili, birgə layihə və proqramlarda tərəflərin iştirakını nəzərdə tutur. İmzalanma mərasimindən sonra çıxış edən rektorlar bu sənədin təhsil və elmin inkişafı baxımından səmərəli olacağını qeyd ediblər. Qardaş ölkənin nümayəndə heyəti universitetlə tanış olub, laboratoriyalara baxış keçirib və xoş təəssüratla ayrılıblar.

Qeyd edək ki, görüşdə Türkiyə tərəfindən rektorun media üzrə məsləhətçisi Ustun Tuncer, genel sekreter Fikret Kara, dosent Sevinc Ucgul, Azərbaycan tərəfindən isə Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Şəlalə Məmmədova iştirak edib.




## BDU Latviya Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalayıb

Oktyabrın 4-də "Azərbaycan-Latviya: mədəni-tarixi dialoq" sərgisi açılıb. Sərgidə Latviyanın ictimai-siyasi, mədəni həyatını, eyni zamanda Azərbaycan-Latviya mədəni, siyasi, ədəbi əlaqələrini əks etdirən kitab, dərgi, buklet və foto şəkillər nümayiş etdirilib. Tədbir çərçivəsində Latviyanın Azərbaycandakı səfiri Hardis Baumanis və Latviya Universitetinin rektoru professor, doktor Marsis Auzinsin başçılıq etdiyi nümayəndə heyəti Bakı Dövlət Universitetini ziyarət edərək rektor, akademik Abel Məhərrəmovla görüş keçiriblər. Görüşdə universitetlərarası qarşılıqlı maraq doğruna məsələlər müzakirə edilib. Nəticədə Bakı Dövlət və Latviya Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Memorandum tələbə-müəllim mübadiləsi, birgə elmi simpozium, seminar və konfransların təşkili, layihə və proqramlarda iştirak və s. digər məsələləri nəzərdə tutur. İmzalanma mərasimindən sonra çıxış edən rektorlar bu sənədin gələcəkdə təhsil və elmin, iki xalq arasındakı münasibətlərin daha da inkişafı baxımından əhəmiyyətli olacağını qeyd ediblər.

✍ Məryəm Mehdiyeva

## BDU-nun hüquq fakültəsinin professor-müəllim heyətinin BDU rektoru akademik A.M.Məhərrəmova müraciəti

*Çox hörmətli Abel müəllim!*

Son zamanlar Bakı Dövlət Universitetində təhsilin keyfiyyətinin artırılmasına, tədrisin gücləndirilməsinə, beynəlxalq təlim metodlarının və innovasiyaların tətbiqinə yönəlmiş islahatlar cəmiyyət tərəfindən çox yüksək qiymətləndirilir. Bu islahatlar xüsusilə BDU-nun hüquq fakültəsində sürətlə aparılmış və fakültədə tamamilə yeni əhval-ruhiyyə yaratmışdır.

Sizin tərəfinizdən hüquq fakültəsinin yeni rəhbərliyinin formalaşdırılması, yeni kafedra və klinikaların təşkil olunması, ingilis və alman dillərində tədris olunan yeni beynəlxalq səviyyəli magistratura ixtisaslaşma proqramlarının yaradılması hüquq cəmiyyəti və cəmiyyətimizin ayrı-ayrı təbəqələri tərəfindən razılıqla qəbul edilir. Hüquq fakültəsinə cəlb etdiyiniz xaricdə təhsil almış gənc kadrlar hüquq fakültəsinin cəmiyyətdə nüfuzunun artırılması, tədris prosesinin təkmilləşdirilməsi, XXI əsrin tələblərinə cavab verən hüquqşünas kadrların yetişdirilməsi üçün böyük zəmin yaradır.

Sizin təşəbbüsünüz və rəhbərliyiniz altında hüquq fakültəsində aparılmış ciddi təmir-tikinti işləri, maddi-texniki bazanın gücləndirilməsi, informasiya texnologiyalarının yeni növlərinin və beynəlxalq standartlara cavab verən müasir təlim texnologiyalarının hüquq fənlərinin tədrisində tətbiqi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan hüquqi islahatların yeni mərhələyə çıxması, dövlətin təhlükəsizliyi və qanunçuluğun təmin edilməsində xüsusi rolu olan hüquq-mühafizə orqanlarında çalışacaq yeni, layiqli, müasir düşüncəli kadrların formalaşdırılması üçün böyük əhəmiyyət kəsb edir.

Artıq bir neçə beynəlxalq təşkilatlar, xarici dövlətlərin səfirlikləri və hüquq sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, eyni zamanda dünyanın aparıcı universitetləri Bakı Dövlət Universitetinin hüquq fakültəsi ilə əməkdaşlıq etməyə maraq göstərmişdir. Azərbaycan Respublikası ilə Avropa ölkələri arasında inteqrasiyanı gücləndirmək məqsədilə Bakı Dövlət Universiteti və Almaniyanın Vürsburq Universiteti ilə əməkdaşlıq nəticəsində hüquq fakültəsində bu tədris ilindən başlayaraq "Avropa hüququ" üzrə yeni magistratura ixtisaslaşmasının açılması bunun bariz nümunəsi və Sizin hüquq elminə olan növbəti töhfənizdir.

*Hörmətli Abel müəllim!*

Əminik ki, Sizin zəhmətiniz və innovativ addımlarınız nəticəsində bu islahatlar uğurla sona çatdırılacaqdır. Təmsil etdiyimiz bütün hüquq ictimaiyyəti, o cümlədən hüquq fakültəsinin professor-müəllim heyəti adından ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla aparılan Azərbaycan Respublikasının hüquqi dövlətə çevrilməsinə yönəlmiş siyasəti dəstəkləmək məqsədilə tərəfinizdən hüquqi təhsilin keyfiyyətinin artırılması üçün aparılmış islahatlara görə Sizə təşəkkür edirik.

Müraciət hüquq fakültəsinin Elmi Şurasının 12 sentyabr 2011-ci il tarixdə keçirilmiş iclasında yekdilliklə qəbul edilmişdir.

## "İKT Modeli" layihəsi

### «İƏT Modeli - beynəlxalq təhsil layihəsinin yeni mərhələsi başlayacaq



2011-ci ilin aprel-may aylarında İslam Konfransı Gənclər Forumunun (İKGF) təşkilatçılığı ilə dünyada ilk dəfə "İKT Modeli" layihəsi Azərbaycanda həyata keçirilmişdir. Layihənin əsas məqsədlərindən biri İslam Konfransı Təşkilatı (İKT) məkanında gənclərin beynəlxalq əməkdaşlığına dəstək vermək, ölkənin müxtəlif qurumları və beynəlxalq təşkilatlarında işləmək istəyən gənclərin idarəetmə, kommunikasiya sahəsində yeni bilik və təcrübə əldə etməsinə yardım etmək olmuşdur. Tədbirin əsas təşkilatçısı Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏ-İKGF), partnyor təşkilatlar isə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi (XİN), Gənclər və İdman Nazirliyi, Diplomatik Akademiya və Bakı Dövlət Universiteti olmuşdur.

Layihə çərçivəsində bütün mühazirələr BDU-da keçirilmiş, layihənin ən aktiv iştirakçı tələbələri də məhz Universitetin tələbələri olmuşdur.

6 həftə ərzində Bakı ali məktəblərinin 130-dan artıq tələbəsinin iştirak etdiyi layihədə İKT-nin tarixi, strukturu, prinsipləri, müxtəlif qlobal mövzular üzrə konsepsiyalar tədris olunmuşdur. 2 ay müddətində layihədə iştirak edən gənclərə İKT ölkələrinin Bakı şəhərində akkreditə olunmuş səfirləri, səfirliklərin əməkdaşları, müxtəlif beynəlxalq və yerli dövlət qurumlarının aparıcı mütəxəssisləri müvafiq mövzular üzrə mühazirələr oxumuşlar.

Dünyada ilk dəfə olaraq DƏ-İKGF-nin təşəbbüsü və Azərbaycan Respublikası XİN, Gənclər və İdman Nazirliyi, Azərbaycan Diplomatik Akademiyası və Bakı Dövlət Universitetinin dəstəyi ilə "İKT Modeli" layihəsi çərçivəsində "İKT Sammiti Modeli" keçirilmişdir. İKT-nin aparıcı ölkələrini təmsil edən gənclər yaratdıqları işçi qruplar model oyunlar çərçivəsində beynəlxalq münasibətlərin problemlərini müzakirə etmiş, əsasən İKT arealında baş verən və beynəlxalq təsirə malik problemləri, böhranların aradan qaldırılması, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini müzakirə edərək adıçəkilən problemlərin həll edilməsi üzrə konkret təkliflərlə çıxış etmişlər. Hərtərəfli debatlardan sonra işçi qrupların mövqeləri nəzərə alınmaqla İKT regionunda böhranların həll edilməsi və sivilizasiyalararası dialoq sahəsi ilə bağlı təkliflərin əks olunduğu yekun sənəd qəbul edilmişdir.

"İKT Sammiti Modeli"ndə fəallığı ilə seçilən tələbələr xüsusi hədiyyə ilə təltif olunmuş və İstanbulda keçirilən "İKT Modeli" adlı beynəlxalq forumda iştirak etmək hüququ əldə etmişlər.

Qeyd edək ki, 29-30 iyun 2011-ci il tarixində Qazaxıstanın paytaxtı Astanada keçirilən İKT-nin Xarici İşlər Nazirləri Şurasının 38-ci sessiyasında İslam Konfransı Təşkilatının adı dəyişdirilərək İslam Əməkdaşlığı Təşkilatı olmuşdur.

İstanbulda yerləşən Sabancı Universitetində 12-16 iyul 2011-ci il tarixində DƏ-İKGF-nin təşkilatçılığı və Türkiyə XİN, Sabancı Universiteti, Tuzla bələdiyyəsi və Misirin Mədəniyyətlərin Tədqiqi və Dialoqu Mərkəzinin müştərək əməkdaşlığı ilə dünyada ilk dəfə beynəlxalq "İƏT Modeli" konfransı təşkil edilmişdir.

Konfransda beynəlxalq münasibətlər sahəsində təhsil alan 200-dən çox bakalavr və magistrant 37 İƏT ölkəsini təmsil etmişdir.

Konfransın son günü - iyulun 16-da "İƏT Modeli" çərçivəsində İƏT Xarici İşlər Nazirləri Şurasının simulyasiya oyunu keçirilmişdir. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və İƏT üzvü ölkələrinin işğalçı ölkəyə qarşı həyata keçirəcəyi sanksiyaların müzakirəsi gündəmə salınmışdır. «İƏT Modeli» 57 ölkənin akademik dairələri və ictimai fikrində Azərbaycan xalqının haqlı mübarizəsi haqqında məlumat səviyyəsinin artmasına xidmət etmişdir.

Konfransın nəticələrinə görə, 3 qalib yeri müəyyən olunmuşdur. İKGF-nin təşkilatçılığı ilə Bakıda keçirilmiş "İƏT Modeli" simulyasiya oyununun qalibi olmuş 5 gənc həmvətənimiz konfransda Azərbaycanı təmsil edərək 2-ci yeri qazanmışlar.

Sentyabrın 16-da Bakı Dövlət Universitetinin rektoru akademik Abel Məhərrəmov qalibləri qəbul etmiş, onları qalibiyyət münasibətilə təbrik etmiş və xatirə şəkili çəkdirmişdir.

Layihənin təşkilati məsələlər üzrə koordinatoru Daşqın Rəcəblinin verdiyi məlumata görə, İKGF-nin təşkilatçılığı ilə təşkil olunan "İƏT Modeli - beynəlxalq təhsil layihəsinin yeni mərhələsi sentaybr ayının sonlarından başlayacaqdır.

**Tamilla Müslümova**

**Sentyabrın 26-da Çinin Renmin Universitetinin rektoru, professor Ci Buxengin rəhbərlik etdiyi nümayəndə heyəti Bakı Dövlət Universitetində olub.**

## BDU İLƏ RENMİN UNİVERSİTETİ ARASINDA MEMORANDUM

Nümayəndə heyətini BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru dosent Şəlalə Məmmədova qəbul edib. Görüşdə BDU-nun Konfusi Mərkəzinin direktoru, şərqşünaslıq fakültəsinin Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müdiri Oktay Cəlilbəyli də iştirak edib. Ş.Məmmədova Azərbaycan ali təhsilinin flaqmanı olan Bakı Dövlət Universitetinin formalaşması və inkişafı haqqında qonaqlara məlumat verib.

Öz növbəsində Ci Buxeng Renmin Universiteti barədə danışıb. Məlum olub ki, adıçəkilən universitetdə azərbaycanlı tələbələr də daxil olmaqla, 1600 əcnəbi tələbə təhsil alır. Qonaq Renmin Universitetinin BDU ilə tələbə-müəllim mübadiləsi etməkdə, birgə tədqiqat layihələrinin reallaşmasında maraqlı olduğunu vurğulayıb.

Görüşün nəticəsi olaraq tərəflər arasında Niyyət Memorandumu imzalanıb.

Çinli qonaqlar BDU-nun elmi-tədqiqat laboratoriyaları ilə tanış olub, Konfusi Mərkəzində çin dili və ədəbiyyatını öyrənən tələbələrlə söhbət ediblər. Qonaqlar tələbələrin çin dilini mənimsəmə səviyyəsindən razı qalıblar.

## "Gənc istedadlar" liseyində Bilik günü qeyd olundu

BDU-nun nəzdində fəaliyyət göstərən "Gənc istedadlar" liseyində ilk dərs gününün başlanması münasibətilə sentyabrın 15-də tədbir keçirildi. Tədbirdə iştirak edən akademik Abel Məhərrəmov iştirakçıları Bilik günü və yeni dərs ilinin başlanması münasibətilə təbrik etdi. Artıq 5-ci ildir ki, fəaliyyət göstərən liseyin Azərdaycan və rus bölmələrinin V-XI siniflərində 480 nəfərin təhsil aldığını, şagirdlərin təlim-tərbiyəsi ilə 70 nəfər müəllimin məşğul olduğunu söyləyən rektor onların arasında 1 nəfər elmlər doktoru, 20 nəfər elmlər namizədi, ali kateqoriyalı müəllimlərin, TQDK-nın aparıcı ekspertlərinin olduğunu diqqətə çatdırdı. A.Məhərrəmov ötən müddət ərzində liseyin maddi-texniki bazasının genişləndiyini, burada kitabxana, kompyuter otağı, kimya laboratoriyası, biologiya və fizika kabinələri, idman zalı, tibb məntəqəsi və yeməkxananın şagirdlərin istifadəsinə verilməsini dövlətimizin təhsilə göstərdiyi yüksək qayğı kimi qiymətləndirdi. Lisey məzunlarının hamısının nüfuzlu ali məktəblərə daxil olmasını ən böyük uğur kimi dəyərləndirildi.

"Gənc istedadlar" liseyinin direktoru, professor Qasım Hüseynov da yeni dərs ilinin başlanması münasibəti ilə hamını təbrik etdi. O, TQDK-nın Təhsil Nazirliyinin tabeliyində olan və özəl liseylər haqqındakı statistik məlumatına əsasən, "Gənc istedadlar" liseyinin 2010-2011-ci tədris ilində ali məktəblərə şagird qəbulu nəticələrinə görə I yerdə olduğunu bildirdi. Liseyin direktoru 2010-2011-ci tədris ilində liseyi bitirib ali məktəblərə qəbul olan 19 nəfər şagirddən 12-nin 500-dən yuxarı, o cümlədən 7 nəfərin isə 600-dən yuxarı bal topladığını böyük fərəhlə diqqətə çatdırdı. Q.Hüseynov 2010-2011-ci tədris ilində Respublika olimpiadasında liseyin şagirdlərindən 2 nəfərin I, 1 nəfərin III, 1 nəfərin isə IV olduğunu qeyd etdi. Lisey şagirdlərinin müxtəlif vaxtlarda intellekt, bilik və idman yarışlarının qalibi olduğunu söyləyən professor Q.Hüseynov bu tədris ilinin birinci yarımilində liseyin bazasında "Müasir şəraitdə orta ümumtəhsil məktəblərində tədrisin keyfiyyətini yüksəltmək yolları" mövzusunda II Respublika elmi-metodiki konfransının keçirilməsinin nəzərdə tutulduğunu bildirdi.

BDU-nun tələbəsi adını qazanaraq, Prezident təqaüdünə layiq görülmüş Orxan Həsənli də sevincini hamı ilə bölüşdü. Valideyn komitəsinin sədri, şair Oktay Zəngilanlı ötən illərdə olduğu kimi, yenə də şagirdlərin qarşısında çıxış edərək yeni şeirlərini söylədi, onlara uğurlar dilədi.

***S.BABAŞOVA***

# ABBAS ZAMANOV HAQQINDA XATİRƏLƏR

## Abbas Zamanov - 100

Görkəmli ədəbiyyatşünas, tənqidçi, mətnşünas, filologiya elmləri doktoru , professor, AMEA-nın müxbir üzvü Abbas Fəttah oğlu Zamanovun (1911-1993) 10 oktyabr 2011-ci il tarixində anadan olmasının 100 ili tamam olur. A.F.Zamanov uzun müddət BDU-da kafedra müdiri, professor kimi fəaliyyət göstərmiş, onun ədəbiyyatşünaslıq elminin inkişafında, gənc alimlər nəslinin yetişdirilməsində müstəsna xidmətləri olmuşdur.

**Qara NAMAZOV,**
**filologiya elmləri doktoru, professor**

Sovet hakimiyyətinin qılıncının dalı da, qabağı da kəsdiyi bir zamanda hər adam əqidə sahibi ola bilməzdi. Əqidə sahibləri həmişə təqib olunurdular. Xüsusən ədəbiyyat adamlarımız daha çox təqiblərə məruz qalırdılar. Belələrindən biri də zamanın mübarizi, görkəmli ədəbiyyatşünas Abbas Zamanov idi.

Mən 1950-ci illərdə Azərbaycan Dövlət Universitetində oxuyarkən Abbas Zamanovu XX əsrin ədəbiyyatının tədqiqatçısı və onu tədris edən müəllim kimi tanıyırdım. Yadımdadır, akademiyanın Böyük zalında Səməd Vurğunun xatirə gecəsi keçirilirdi. Həmin il ermənilər Moskvanın vasitəsilə Naxçıvanı tələb edir, geniş tədqiqat aparırdılar. Xatirə gecəsində Abbas müəllim bir dostunun yana-yana ermənilərin Naxçıvanı istəməsini xatırladıb dedi:

- Səməd Vurğun sağ olsaydı, deyərdi: "Naxçıvan Azərbaycanın ayrılmaz bir parçasıdır, biz onu heç kəsə vermərik!"

Abbas müəllimin bu sözləri zalda gurultulu alqışlarla qarşılandı. Bir neçə gündən sonra Abbas müəllim cəzalandırıldı. Təqdim edilmiş dosent vəzifəsi ləğv edildi. Universiteti tərk etməli oldu. Nizami adına Ədəbiyyat İnstitutuna elmi işçi keçdi.

O illərdə mən Hacı Zeynalabdin Tağıyevin evində kitabxana və arxivin direktoru idim, həm də Azərbaycan Dövlət Universitetində müəllimlik edirdim. Abbas müəllim həmin kitabxanaya gəlir, M.Ə.Sabir haqqında material toplayıb dissertasiya işi yazırdı.

Abbas müəllimlə yaxın münasibətlərimiz bu illərdə başlandı. O, qocaman jurnalist Qulam Məmmədli ilə birlikdə çox maraqlı ədəbi söhbətlər edirdi. Mən də arabir çay dəsgahı düzəldir, onların söhbətlərinə qulaq asırdım. Qulam Məmmədli köməyini Abbas müəllimdən əsirgəmirdi.

O illərdə Abbas müəllim nə qədər çətin günlər keçirsə də, görüşüb vəziyyətini soruşduqda deyərdi: "Şikayət etməyə haqqımız yoxdur". Abbas müəllim dözümlü və nikbin insan idi. Sabaha ümidlə baxırdı.

Baxmayaraq ki, Abbas müəllim öz evində də əsəbi günlər keçirirdi, evində xəstə vardı, bəzən işdə onu həmyaşıdları ilə də sözü çəp gəlirdi. Bütün bunlara o dözür, həm də zarafatından da qalmırdı. Evinə gedəndə deyərdi: "Asya, Mirzə Firudinlə aşıq Qara gəliblər".

Asya xanım tələsik süfrə açar, Abbas müəllim də mütləq konyak gətirib, bir azca da özünə süzərdi. Söhbəti də ya Azərbaycan ədiblərindən, ya da türk yaradıcılarından olardı. Beləcə, xoş üzlə bizi yola salardı.

Mən o illərdə Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında qiyabi təhsil alır, dissertasiya üzərində işləyirdim. Müdafiə zamanı Abbas müəllim mənim opponentim oldu.

Abbas Zamanov məktəbi milli təəssübkeşlik, vətənpərvərlik, türksevərlik və nəhayət, xeyirxahlıq məktəbi idi.

Bu dörd keyfiyyəti Abbas müəllim sözdə yox, işdə, əməldə, gündəlik fəaliyyətində həyata keçirirdi. Bu məziyyətlər Abbas Zamanovun həyat məramı, amalı idi.

Bu məziyyətlər, ilk növbədə, Abbas müəllimin təbiətində idi. İkinci də, o, XX yüzilin birinci rübündə yeni bir ədəbi məktəbin: millətin oyanması, maariflənməsi, çökməyə üz qoyanda imperiyaya qarşı mübarizə, türkçülüyün-azərbaycançılığın təşviqi, demokratik fikirlərin təbliği kimi məsələləri yaradıcılıq qayəsi hesab edən Mirzə Cəlil, Ü.Hacıbəyov, M.Ə.Sabir, Ə.Haqverdiyev, A.Şaiq və A.Səhhət kimi qüdrətli qələm sahiblərinin həyat yolunu və ədəbi irsini öyrənə-öyrənə özü də bu yolun yolçusu olmuşdur.

Abbas müəllim Sabiri və müasirlərini öyrənə-öyrənə həm görkəmli sabirşünas oldu, həm də Sabiri və ümumiyyətlə, mollanəsrəddinçiləri tələbələrə öyrədə-öyrədə bu əzəmətli məktəbin böyük təbliğatçısı kimi tanındı. Abbas müəllim hansı məclisdə olursa-olsun, ictimai yerlərdə də, toyda da, yolda da, kafedrada gündəlik söhbətlərində də Sabirdən, Mirzə Cəlildən danışar, onların haqqında eşitdiyi xatirələri söyləyər, XX əsr mətbuatından oxuduğu yazılardan danışardı.

Nəşriyyatlarda ədəbiyyata dair təzə bir kitab çıxan kimi mütləq bir neçə nüsxə alıb birini Türkiyəyə, bir neçəsini də Türkiyə və İranda olan dostlarına göndərirdi. Beləcə, Türkiyədə ayrıca Abbas Zamanov kitabxanası yarandı.

1984-cü ildə Filarmoniyada Azərbaycan Aşıqlarının dördüncü (IV) qurultayı keçirilirdi. Mənim "Azərbaycan aşıq sənəti" adlı Azərbaycan və rus dillərində nəşr olunan kitabım Filarmoniyanın foyesində satılırdı. Abbas müəllim elə oradaca həmin kitabın azərbaycancasından 20 dənə aldırtdı, ikimiz birlikdə aparıb tituluna yazdırdığı ünvanlara mərkəzi poçtdan yola saldıq. Mənim "Aşığın sazı və sözü", "Azərbaycan uşaq ədəbiyyatı" və b. kitablarımı da Abbas müəllim Türkiyə və İrandakı dostlarına göndərdi.



Fakültə əməkdaşları ilə

Bu yöndə Abbas müəllimi əvəz edən ikinci şəxs yox idi. Abbas müəllimin bir fədakarlığını da demək lazımdır. O, görkəmli klassiklərimizin və 1937-ci ildə təqiblərə və repressiyaya məruz qalmış unudulmaz yazıçıların: M.Cəlilin, M.Ə.Sabirin, S.S.Axundovun, S.Hüseynin, H.B.Nəzərlinin, S.M.Qənizadənin və s. arxivlərindən əsərlərini toplayıb, tərtib edib, ətraflı ön sözlə çap etdirmişdir.

1970-80-ci illərdə çoxsaylı bir nəslin yetişməsində Abbas müəllimin əvəzsiz xidməti olmuşdur. 23 il Abbas müəllimlə bir kafedrada, bir fakültədə çalışdıq və mənim yaddaşımda silinməz xatirələr qaldı.

**Tofiq HACIYEV,**
**AMEA-nın müxbir üzvü**




Konya Səlcuq Universitetinin Fəxri doktoru adı verilən zaman

Birdən ildırım sürətilə bütün Bakıya yayıldı ki, S.Vurğun günündə Elmlər Akademiyasının Böyük zalında Abbas müəllim üzünü dolu salona tutub deyib ki, "ay insanlar, bilin və agah olun ki, ermənilər Moskvanın əli ilə Naxçıvanı Ermənistana birləşdirmək istəyirlər". Radiosuz, televizorsuz-filansız, ağızdan-ağıza, ev-ev, küçə-küçə, rayon-rayon bu xəbər bütün Azərbaycana çatdı. Bəzi eşidənlər, Abbas müəllimi tanımayanlar qulaqlarına inanmadılar: "Ayın, günün bu vaxtında belə söz demək olmaz, bu, canından keçməkdir". Bəli, doğrudan da, bu, canından keçmək demək idi. Abbas müəllimi yaxşı tanıyanlar, xüsusilə biz tələbələri bilirdik ki, Abbas müəllimimiz torpağımızın bir qarışı üçün də canından keçər. Heç demə, Moskva bu işi xəlvəti etmək istəyirmiş. Abbas müəllim bu xəlvəti kütləvi elan etdi. Yüksək tribunadan Abbas müəllimin bu sözü qurbağa gölünə bir daş kimi atıldı: Naxçıvan söhbəti bununla bitdi.

Biz tələbələri sinifdə onun qan qoxuyan söhbətlərinə çox qulaq asmışdıq. Guya, M.Ə.Sabirdən, M.Cəlildən danışır, guya, sadəcə, onların əsərlərini təhlil edirdi, ancaq açıq şəkildə, pərdəsiz-filansız millətçilik dərsi deyirdi. O, bizim sinfin "A" qrupunun səviyyəsini yaxşı bildiyi üçün xüsusi şövqlə danışırdı; bilirdi ki, burada edilən millətçi işarələrin heç biri havada qalmayacaq. Və həqiqətən, biz Abbas müəllimdən millətçilik dərsi aldıq.

1986-cı ilin əvvəllərində Abbas müəllim London universitetinin professoru Turxan Gənceyinin "Monqola qədərki fars şairlərinin dilində türk sözləri" adlı tədqiqatının ayrıca risaləsini mənə verdi və dedi ki, "gör içində nə var, bir söz lazımdırsa, de". Tədqiqat ingilis dilində idi. İngilis dili müəllimi Tamara xanımın (yoldaşım) yardımı ilə əsəri öyrəndim. Çox dəyərli tədqiqat idi. O vaxta qədər mən bizim fars dilində yazan sənətkarlarımızın: Qətran Təbrizinin, Xaqaninin, T.Gənceyinin əsərlərində türk sözlərinin tədqiqi ilə tanış idim. Ancaq T.Gənceyi milliyyətcə fars olan şairlərin dilində türk sözlərini təhlil edirdi. Tədqiqatda monqol dövrünə qədərki ədəbiyyat əhatə olunurdu. Haqqında bir məqalə yazıb "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirdim. Aradan bir xeyli keçmişdi, Abbas müəllim "Varlıq" jurnalında Həmid Nitqinin məqaləsində məndən iqtibas gətirdiyini və soyadımı da Hacıbəyli yazdığını söylədi (sonra məqaləni gətirdi, özüm də oxudum).

Mən bilirdim ki, məqaləni Abbas müəllim göndərib, ancaq elə-belə, məzə üçün soruşdum: "Balam, görən, haradan əldə eləyiblər?" Gülümsədi, əlini çiynimə qoydu, dedi: "Elə xırdalığa getmə, kimsə bir Allah bəndəsi göndərib də".

Abbas müəllim mənə məqaləçiliyə meyil etməməyi tövsiyə edəndə bilirdim ki, öz həyat yolunu nəzərə alıb belə deyir. O özü dissertasiyasını çox gec müdafiə etmişdi. O, bizə dediyi siyasi-milli məxrəcli mühazirələrini oxuyanda elmi dərəcəsiz idi. Ancaq onun XX əsrin əvvəllərinin böyük sənətkarlarına aid hər məqaləsi bir dissertasiya çəkisində idi. O, arixvlərdən elmi ictimaiyyətə nə qədər tapıntılar təqdim etmişdi. Abbas müəllim bizə elmi dərəcəsiz dərs deyərkən kamil doktor kimi diqqəti çəkirdi. Təsadüfi deyil ki, onun namizədlik dissertasiyası kimi təqdim etdiyi tədqiqata birbaşa doktor dərəcəsi verildi. Həyatında sosializmin, rus şovinizminin çox ədalətsizliklərinə məruz qalmış müəllimimiz, axır ki, bir insaflı, ədalətli hərəkətlə qarşılaşdı.

Abbas müəllim başqa müəllimlərimizdən bir xasiyyəti ilə də fərqlənirdi: o, bizimlə bir yoldaş kimi, dost kimi davranardı. Onun şirin yumorlarına bəzən biz də cəsarət edib zarafatla cavab verərdik.

70-ci illərin əvvəlləri idi. Naxçıvan Pedaqoji İnstitutunda prorektor işləyən professor Yavuz Axundov məni dil tarixindən dərs deməyə dəvət etdi. Bir ay birinci, bir ay da ikinci semestrdə olmaqla, iki il orada dərs apardım. Birinci dəfə qayıdandan sonra bir dəfə Abbas müəllimlə filologiya fakültəsinin dəhlizində qarşılaşdıq. Salam-kəlam, hal-əhvaldan sonra Abbas müəllim mənə dedi ki, "eşitmişəm Naxçıvan İnstitutuna getmisən, orada nə var, nə yox? Yavuz necədir?" Abbas müəllim xüsusi ləzzət alacaq deyə, mənə xüsusi xoş gəlmiş bir şey dedim. Dedim ki, tələbələr lap o inqilabdan qabaqkı məktəblərsayağı eləmə çox acgözlüklə, tələbkarlıqla yanaşırlar, tənəffüsə çıxmaq istəmirlər, müəllimə qulaq asırlar, çoxlu suallar verirlər. Doğrudan, bu vəziyyətdən çox məmnun qaldı. Sonra qalstukuma baxdı. Dedi: "Bu qalstuku haradan almısan?" Dedim: "Oradan". Doğrudan, Naxçıvan univermağından almışdım. Ancaq Abbas müəllim inanmadı, gülümsədi, dedi ki, sən də Naxçıvanı döndərmisən Vaşinqtona. Söhbətimizi qurtarıb ayrılanda dedim ki, Abbas müəllim, bir təəssüratım da var, onu deyim. Dedi: "Hə, de görüm". Dedim: "Abbas müəllim, oradakı naxçıvanlılar çox qonaqsevər, çox mehriban, çox qeyri-adi, gözəl insanlardır". Əlini əlinə vurdu, ürəkdən güldü, dedi: "Düz deyirsən, onlar bizdən yaxşıdırlar". Neçə illər keçəndən sonra da Abbas müəllimlə görüşəndə səmimi təbəssümlə mənə deyərdi: "Hə, sən deyirsən, oradakılar bizdən yaxşıdır?" Beləcə, Abbas müəllimdən biz elm də öyrənmişik, zarafat da, azdan-çoxdan cəsarət və prinsipiallıq da.

**Məhərrəm Vəliyev,**
**Filologiya fakültəsinin dekanı, dosent**

Abbas Zamanovun şəxsiyyəti, çoxcəhətli yaradıcılığı, geniş fəaliyyət dairəsi, çətin, ağır və ziddiyyətli həyat yolu onu sevənlərin yaddaşına həkk olunmuşdur. Onu tanıyanların düşüncəsində Abbas müəllim vüqarlı, mübariz, xalqına bağlı bir ziyalı, vətənpərvər insan kimi qalmışdır. Bu böyük alim haqqında tələbəlik illərində çox eşitmiş, əsər və məqalələrini oxumuşdum. Yaxından görsəm də, ünsiyyətimiz çox olmamışdı. Bizə mühazirə aparırdı. Səs tellərində problem olduğu üçün bir stəkan qaynanmış suyu kürsüyə qoyar, hərdən bir qurtum içərdi. Elə bir mühazirəsi olmurdu ki, tələbələrin hamısı orda iştirak etməsin. Jurnal yoxlamazdı. Tələbələr onun dərsinin bitməsini istəmirdilər. Dərslər bitəndən sonra uşaqları muzeylərə aparır, mühazirədə söylədiyi bilmədiklərini orada çox aramla izah edir, dövrün və zamanın çətin sınaqlarından çıxmış bir alim kimi düşüncələrini aydın şəkildə ifadə edirdi. Hamımız Abbas müəllimi sevirdik. Tələbələr ona salam vermək, onunla söhbət etmək arzusunda idilər. Halını soruşanda cavab verərdi: "Şikayət etməyə əsas yox. Polad kimiyəm".

Laborant işlədiyim müddətdə onunla münasibətlərimiz genişləndi. Abbas müəllim artıq yaşlanmışdı. Müxtəlif mövzulu məqalələrini diktə edir, mən yazırdım. Aldığı qonorarı tən yarı bölərdi. Söhbətlərində həyatının gizli, çətin məqamlarından, xaricdə yaşayan alim və şairlərlə münasibətindən həvəslə, asta-asta danışardı.

Yeni ailə qurduğumu bilirdi, evlərindən çıxanda həyat yoldaşı Asya xanıma deyərdi ki, "nəvəmə payını ver". Onun payını götürməmək olmazdı.

Abbas müəllimin kitabxanası maraqlı və zəngin idi. Çox cəhd edirdim ki, ora keçim, lazımi kitabları görüm, seçim. Amma o, buna imkan verməzdi. Kitabları olan otağa daxil olar, pərdəni də çəkərdi. Deyirdim ki, Abbas müəllim, orada, deyəsən, kitablardan başqa, daha gizli və sirli nəsə var. O gülümsünər və heç nə deməzdi.

Mühacirətdə yaşayan (indi yadımda deyil, kim idi) bir ədib haqqında məqaləni yazıya alırdım. Abbas müəllim cümləni belə bitirdi: "O öldü". Mən etiraz etdim ki, Abbas müəllim, bəlkə, bu ifadəni əvəz edəsiniz. O, belə cavab verdi: "İşini gör, sən yazanda öz bildiyin kimi edərsən".

Məqalə bitdi. Onu təkrar oxudum. Bu zaman Asya xanım müdaxilə etdi: "Abbas, uşaq düz deyir, oranı dəyiş". Abbas müəllim "öldü" sözünü "gözlərini əbədi yumdu" ifadəsi ilə əvəz etdi. Dözmədim, dedim: "Abbas müəllim, bilirdim ki, yazılarınızın redaktoru Asya xanımdır".

Abbas müəllim ümummilli liderimiz Heydər Əliyevlə dostluğundan, məktublaşdığından ürəklə danışardı. Moskvada ümummilli liderimizə qarşı təbliğat aparılan zaman Abbas müəllim heç vaxt ümidini itirmirdi və deyirdi: "Heydər Əliyev onların qarşısında gör nələrə nail olacaq. Onu sındırmaq olmaz".

Bu dostluq qarşılıqlı idi. Ümummilli lider Abbas müəllimin xidmətlərini yüksək dəyərləndirmişdi: "Böyük alim, Azərbaycan elminin, ədəbiyyatının, mədəniyyətinin inkişafında öz fədakar əməyi ilə əvəzsiz rol oynamış Abbas Zamanovun xidmətləri unudulmazdır. Azərbaycan ədəbiyyatının bir çox ölkələrdə tanınması və təbliğ olunması Abbas Zamanovun adı ilə bağlıdır. Şübhə yoxdur ki, Abbas Zamanovun yaratdığı əsərlərdən milli mədəniyyətimiz gələcəkdə də bəhrələnəcəkdir".

Allah o xeyirxah insanın ruhunu şad etsin.

**Söhbətləşdi: Solmaz Babaşova**

## VİDA SÖZÜ



Müseyib mənim gənclik dostum idi. Biz Azərbaycan Dövlət Universitetində (indiki BDU-da) bir-iki il fərq ilə eyni vaxtda təhsil almış, eyni vaxtda işə başlamışıq. Yaxşı, xeyirxah insan idi. Ciddi, təvazökar, məhsuldar alim idi. Geniş dünyagörüşünə malik idi. Müxtəlif elm sahələri ilə maraqlanırdı, mütaliə dairəsi öz dar ixtisası ilə məhdudlaşmırdı. Hümanitar elmlərin bütün sahələrindən xəbərdar idi və bu sahələrin mütəxəssisləri ilə elmi mübahisələr aparmaq imkanına malik idi. Səmimi idi. İncə yumoru var idi. Yaşıdları ilə zarafatı sevərdi. Bir sözlə, əsl insan, əsl dost, əsl müəllim, əsl alim və təşkilatçı idi.

Yazıçılar, alimlər dünya haqqında fantastik, simvolik, ciddi, elmi çox söz deyiblər. "Dünya bir pəncərədir, hər gələn baxar gedər" , - deyiblər. "Biz gəldi-gedərik, sən yaşa, dünya!" - deyiblər. Həyat belədir. Gəliblər, gediblər. Gəlmişik, gedirik. Gələcəklər, gedəcəklər. Min, milyon illər belə olub, belə olacaqdır. Heç nə, heç şey daimi deyil. Ancaq bir nəsil digər nəsli xatirələrdə yaşadır. Sonra o nəsil də gedir. Onlarla bərabər həmin xatirələr də yox olur. Gözəl müəllimlərimiz olub, onlarla fəxr etmişik, indi də onları yad edirik. Təsəlli tapırıq ki, yüzlərlə, minlərlə yetirmələrimizin qəlblərində, solğun da olsa, qalacaq və yad ediləcəyik. Bu yad edilənlərin arasında Müseyib müəllimin yeri ayrıca olacaqdır.

***Yusif Seyidov,***
***Filologiya elmləri doktoru, kafedra müdiri***

# EKOLOGİYA VƏ TORPAQŞÜNASLIQ FAKÜLTƏSİ

**Son zamanlar ətraf mühitin, torpağın, bitki və heyvanat aləminin ekoloji baxımdan öyrənilməsi vacib tələblərdən birinə çevrilib. Bu baxımdan respublikamızda da yüksək ixtisaslı ekoloq kadrların hazırlanmasına böyük zərurət var. Bakı Dövlət Universitetində bu sahədə peşəkar mütəxəssislərin olması və kifayət qədər dərs yükünün formalaşması artıq bu ehtiyacı aradan qaldırmağa imkan verir. Onu da qeyd edək ki, ekologiya üzrə ixtisaslaşan tələbələr indiyədək coğrafiya, biologiya və kimya fakültələrində təhsil alıblar.**

**Universitet Elmi Şurasının 15 noyabr 2010-cu il tarixli qərarı əsasında rektor, akademik Abel Məhərrəmovun R-03 saylı 16.06.11 tarixli əmri ilə universitetimizdə sayca 17-ci olan ekologiya və torpaqşünaslıq fakültəsi yaradılıb. Zamanın tələbi ilə yaradılan yeni fakültənin strukturuna öz bazaları əsasında 4 kafedra və 2 elmi-tədqiqat laboratoriyası daxil edilib. Yer quruluşu və kadastr kafedrası yeni yaradılıb. Təhsil əyani və qiyabi olmaqla, Azərbaycan və rus dillərində aparılır. Fakültədə 520-yə yaxın bakalavr və magistr təhsil alır. Onların təlim-tərbiyəsi ilə 1 akademik, 7 nəfər elmlər doktoru, professor, 22 nəfər elmlər namizədi, dosent, baş müəllim, müəllim məşğul olur. Fakültəyə dosent Nazim Şəmilov rəhbərlik edir.**



## Torpaqşünaslıq kafedrası

Kafedra 2004-cü ildə biologiya fakültəsinin nəzdində yaradılıb. Burada 2 nəfər elmlər doktoru, professor, 4 nəfər elmlər namizədi, 1 nəfər baş laborant (dissertant) çalışır. Kafedraya torpaqşünaslıq və ekologiya sahəsində dünya şöhrətli alim, Azərbaycan Respublikasının Torpaq və Xəritəçəkmə Komitəsinin sədri, akademik Qərib Məmmədov rəhbərlik edir. Kafedra əməkdaşları tərəfindən Böyük Qafqaz torpaqlarının ekoloji qiymətləndirilməsi sahəsində dəyərli tədqiqatlar aparılır.

Son üç ildə çap olunmuş "Azərbaycanın ekoetik problemləri", "Ekologiya və ətraf mühitin mühafizəsi", "Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları", "Azərbaycan Respublikasının torpaq atlası" adlı nəşrlər əməkdaşların səmərəli fəaliyyətindən xəbər verir.

## Bioekologiya kafedrası

Bioekologiya kafedrası biologiya fakültəsinin Onurğalılar zoologiyası və bioekologiya kafedrasının bazası əsasında yaradılıb. Kafedra əməkdaşları tərəfindən Azərbaycan biomüxtəlifliyinin öyrənilməsi və konsepsiyası istiqamətində elmi işlər aparılır. Kafedra əməkdaşlarının apardıqları elmi-tədqiqat işləri bir sıra dəyərli dərslik, dərs vəsaiti və monoqrafiyalarda öz əksini tapıb. Kafedraya biologiya elmləri doktoru, professor Nərminə Sadıqova rəhbərlik edir.

## Ekoloji kimya kafedrası

"Ətraf mühitin toksiki birləşmələrlə çirklənməsinin monitorinqi və nəticələrinin aradan qaldırılması yolları" mövzusunda aparılan elmi-tədqiqat işlərində kafedranın professor, müəllim və laborantları, o cümlədən aspirant və dissertantları iştirak edirlər. Elmi işlər məqalə və tezislər şəklində müxtəlif konfrans və seminarlara təqdim edilir və çap olunur. 2003-cü ildə yaradılmış Ekoloji kimya kafedrasına kimya elmləri doktoru, professor Sevinc Hacıyeva rəhbərlik edir.

## Coğrafi ekologiya kafedrası

Kafedra 1980-ci ildən fəaliyyət göstərən Ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə kafedrasının bazası əsasında yaradılıb. Coğrafiya elmləri doktoru, professor Şövqi Göyçaylı 30 ildən artıqdır ki, bu kafedraya rəhbərlik edir. Bu vaxta qədər ekologiya və ətraf mühiti mühafizə sahəsində bu, yeganə kafedra olmuşdur. BDU-da və Təhsil Nazirliyi sistemində ekologiya və ətraf mühiti mühafizə sahəsində kadr hazırlığı, həmçinin bu sahədə təbliğatın genişlənməsində kafedranın böyük rolu olmuşdur. Kafedra ekologiya və ətraf mühiti mühafizə sahəsində elmi-metodik mərkəz kimi də əhəmiyyətlidir.

Kafedranın xarici ölkələrin tədris və elmi mərkəzləri ilə əlaqələri vardır. ABŞ-ın Con Hopkins Universiteti, Almaniyanın Zukkov Fondu və Kazan Universiteti ilə sıx elmi əməkdaşlıq səmərəli şəkildə davam etdirilir. Son beş ildə kafedra əməkdaşları tərəfindən bir sıra dərslik, dərs vəsaitləri və monorqrafiyalar nəşr edilib.

## Yer quruluşu və kadastr kafedrası

Bu sahədə ixtisaslı kadrların hazırlanmasını təmin etmək üçün fakültədə daha bir yeni kafedra açılıb. Elmi Şuranın 13.07.2011-ci il tarixli qərarına əsasən rektor, akademik Abel Məhərrəmovun təşəbbüsü ilə Torpaqşünaslıq kafedrasının bazası əsasında Yer quruluşu və kadastr kafedrası yaradılıb. Yer quruluşu və kadastr kafedrasının dərs yükünün bölgüsü kafedranın profilinə uyğun fənlər üzrə aparılıb və kadr potensialının tərkibi müəllimlərin ixtisas yönümünə və onların elmi istiqamətinə uyğun olaraq formalaşıb. Kafedra müdiri vəzifəsinin icrası gələcəkdə müsabiqə elan edilməklə dosent Teymur Nizamzadəyə həvalə edilib. Kafedranın profili, professor-müəllim heyətinin ixtisas yönümü tədris yükünə əsasən formalaşıb. Hazırda kafedranın yerləşdirilməsi və maddi-texniki təchizatının təmin edilməsi istiqamətində işlər görülür.

**Fakültənin strukturuna iki elmi-tədqiqat laboratoriyası** da daxildir: Ekoloji kimya və ətraf mühitin mühafizəsi və Ekoloji monitorinq.

**Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyası** 2001-ci ildə AMEA-nın müxbir üzvü, professor Rəfiqə Əliyeva tərəfindən yaradılıb. Laboratoriyanın əsas elmi istiqaməti üzvi reaktivlərin köməyi ilə materialların təyini və onların ayrılması metodlarının işlənib hazırlanmasından ibarətdir. Laboratoriyada sənaye və təbii obyektlərin tərkibinə daxil olan zərərli maddələrin analizi sahəsində tədqiqat işləri aparılır. Bunun üçün bir sıra fiziki-kimyəvi analiz metodlarından istifadə edilir. Ətraf mühitin kimyəvi tullantılarla çirklənməsi, digər tərəfdən, texnika və texnologiyanın yeni istiqamətlərinin inkişafı, istehsalın müasir səviyyəsi sənaye obyektlərində, eləcə də ətraf mühit obyektlərində maddələrin miqdarının təyinini tələb edir.



Buraxılış işinin müdafiəsi zamanı

Laboratoriya yarandığı gündən aparılan elmi-tədqiqat işlərinin, elmi və pedaqoji fəaliyyətin nəticələri 350-dən çox elmi əsərdə, o cümlədən 19 dərs vəsaiti, 17 patentdə öz əksini tapıb.

*Qeyd etdiyimiz kimi, ekologiya və torpaqşünaslıq fakültəsi universitetimizin ən gənc fakültəsidir*. Bu il fakültəyə üç ixtisas üzrə 144 nəfər tələbə qəbul olunub. Onlardan 21 nəfəri rus bölməsinin, qalanları isə Azərbaycan bölməsinin payına düşür. Fakültənin ən yüksək ballı tələbələri Nəsirli Dilarə Xudayar qızı və Məhərrəmov Orxan Elxan oğludur.

Ekologiya və torpaqşünaslıq fakültəsinin genişlənməsi və maddi-texniki bazasının gücləndirilməsi üçün universitet rəhbərliyi tərəfindən lazımı tədbirlər görülür. İnanırıq ki, fakültənin yetişdirdiyi tələbələr onlara göstərilən etimadı doğruldacaq, respublikamızda ekoloq, torpaqşünas, yer quruluşçusu kimi kadrlara olan ehtiyacı ödəməklə universitetimizin adını daha da ucaldacaqlar.

✍ **S.BABAŞOVA**



Fakültə tyutorları

## Kür və Araz çaylarında çirkləndiricilər normadan artıqdır

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Kür və Araz transsərhəd çaylarının, həmçinin onların qollarının çirklənmə səviyyəsini öyrənmək məqsədi ilə sentyabrın üçüncü ongünlüyü üçün keçirdiyi monitorinqin nəticələrini açıqlayıb.**



Kür çayında su sərfi sentyabr ayının ikinci ongünlüyünə nisbətən saniyədə 35,2 kubmetr artaraq saniyədə 129 kubmetr təşkil edib.

Qeyd edək ki, Gürcüstan və Ermənistan ərazilərindən məişət tullantıları və sənaye müəssisələrinin çirkab suları təmizlənmədən birbaşa Kürə axıdılır. Nəticədə çayın aşağı axınındakı məntəqələrdə biogen maddələrin miqdarı normanı dəfələrlə keçib.

Eyni hal Araz çayının Horadiz, Birinci Şahsevən və Bəhramtəpə məntəqələrində də müşahidə olunub. Suyun oksigen rejimi isə bütün məntəqələrdə sanitar norma daxilində dəyişib.

# "Metroda kitab oxuyan gəncləri görəndə sevinirəm"

Tələbələrə örnək olmaq, kitab oxumağa marağı daha da artırmaq məqsədilə qəzetimizin hər sayında fakültə rəhbərləri ilə kitab mövzusunda söhbət edirik.

**Bu dəfəki müsahibimiz isə Coğrafiya fakültəsinin dekanı, professor Fərda İmanovdur**

**- İnsanın həyatını dəyişə biləcək bir kitab tanıyırsınızmı?**

- Düşünürəm ki, "Allahlar necə yaranır və necə ölür" kitabı çox insanın həyata baxışını dəyişə bilər.

**- Sizə ilk təsir edən, "Bu kitab o biri kitablardan deyil" dedirdən kitab, ya da kitablar varmı?**

- Teodor Drayzerin "Finansist" əsərini bu siyahıya daxil edə bilərəm.

**- Sonuncu dəfə nə vaxt kitab oxumusunuz?**

- İmkan daxilində həmişə çalışıram ki, kitab mütaliəsinə zaman ayırım. Sonuncu dəfə sentyabrın əvvəllərində kitab oxumuşam.

**- Kitab seçiminizə nə təsir edir?**

- Maraq dairəmə uyğun kitablar alıram.

**- Günün hansı saatlarında kitab oxuyursunuz?**

- Adətən, gecələr oxumağa üstünlük verirəm. Həm də bu, bizim işimizlə əlaqədardır.

**- Günə neçə səhifə oxuya bilirsiniz?**

- Kitabdan asılıdır. Çox maraqlı və nisbətən kiçik həcmli kitabları bir dəfəyə oxuyuram. Ümumilikdə isə adətən, gündə 20-30 səhifəni nəzərdən keçirirəm.

**- Eyni zamanda bir neçə kitabı oxumaq vərdişiniz varmı?**

- Əgər bədii və elmi kitablardırsa, bəli.

**- Təkrar oxuduğunuz kitablar varmı?**

- Xeyr, buna vaxtım yoxdur.

**- Evinizdə təxminən neçə kitab var?**

- Şəxsi kitabxanamda təxminən bir neçə yüz kitab var.

**- Belə bir fikir var ki, insanın yaşı artdıqca sənədli kitablara daha çox meyil edir. Bu fikrə münasibətiniz necədir?**

- Razıyam. Məndə də belə hal olub.

**- Son oxuduğunuz kitablar hansılar olub?**

- "Yəhudilərin tarixi", "Hidrologiyanın müasir problemləri" (rus dilində).

**- "İstəyirəm bu kitabı hamı oxusun" - deyə biləcəyiniz bir kitab varmı?**

- Xeyr.

**- Heç kitab oğurlamısınız?**

- Xeyr, ancaq götürüb qaytarmadığım vaxtlar olub.

**- Kitabxananızda sevmədiyiniz yazarların kitabları varmı?**

- Elə kitabları başqalarına bağışlayıram.

**- Həyatınızın bir kitab olmasını, ya da bir kitabda yaşamaq istərdinizmi?**

- Xeyr. Elə istəyim heç vaxt olmayıb.

**- Məktəbdən, universitetdən dərs kitablarınız durulmu?**



- Hər ikisindən durur, ancaq universitetdə təhsil aldığım müddətdə aldığım kitablar çoxluq təşkil edir.

**- Birinci sinfə gedəndə oxumağı çox sevirdiniz, yoxsa yazı yazmağı?**

- Xəttim pisdir, oxumağa üstünlük verirdim.

**- Kitab oxuyanda qaldığınız yeri işarələmək üçün nə edirsiniz?**

- Rəngli kağız parçası qoyuram.

**- Əzbərinizdə neçə şeir var?**

- Heç neçə. Şeir əzbərləməyi o qədər də sevmirəm.

**- Bəs kitabxananızda?**

- Kitabxanamda bir neçə şeir kitabım var.

**- İlk oxuduğunuz kitabı xatırlayırsınızmı?**

- Bəli, bu, "Heraklın oniki qəhrəmanları" kitabı idi.

**- Kiməsə kitab bağışlamısınızmı?**

- Bəli, dəfələrlə olub ki, yaxınlarıma, tanışlarıma kitab hədiyyə etmişəm.

**- Ən sevdiyiniz film kitab olsaydı, onu oxuyardınızmı?**

- Xeyr, oxumazdım.

**- Qarabağ problemi ilə bağlı bir kitab oxumusunuzmu?**

- Bu mövzuda bir neçə kitab oxumuşam, o cümlədən hər gün "Zerkalo" qəzetində məqalələri izləyirəm.

**- Sitayiş etdiyiniz dindən başqa dinləri araşdırırsınızmı?**

- Dinin tarixi məni çox maraqlandırır. Lakin mən əslində ateistəm.

**- Elektron kitab oxumusunuzmu?**

- Bəli, zaman-zaman oxuyuram.

**- Heç zaman kitab yazmayan, amma kitab yazmasını istədiyiniz bir insan varmı?**

- Xeyr.

**- Avtobusda çantasından bir kitab çıxarıb oxumağa başlayan bir adam görəndə nə düşünürsünüz?**

- Sovet dövründə 16 il Leninqradda (indiki Sankt-Peterburqda) yaşamışam. O vaxtlar dediyiniz bu hal məni təəccübləndirmirdi. İndi isə metroda belə hal görəndə sevinirəm.

**- Yandırdığınız kitab olubmu?**

- Xeyr. Kitabı yandırmağa əlim gəlməz.

**- Birnəfəsə oxuyub bitirdiyiniz kitab varmı?**

- Artıq qeyd etdiyim kimi, kiçik həcmli detektivləri birnəfəsə oxuyuram.

**- Oxumadığınız kitabı əlinizə götürəndə ilk nəyə diqqət edirsiniz?**

- Müəllifə və xülasəyə.

**- Kitabın üz qabığı Sizə nə deyir?**

- Yaxşı tərtib olunmuş kitablar məndə həmişə müsbət emosiya yaradır.

*Aynur Qurbanqızı*

# Görüş yerindən reportaj

**Bu səhər göylər də, istilərin təzəcə səngidiyi havanın təmkini də, hələ payızın izi görünməyən ağacların yaşıl yarpaqları da onları elə universitet həyətinin girəcəyində sevgi və məhəbbətlə qarşılayırdı. Bakı Dövlət Universiteti həyətinin dörd tərəfindən qapılarını onların üzünə açmışdı. Qapılarda dayanan mühafizə işçilərindən tutmuş qoca professora qədər hər kəsin üzündə nurdan yaranmış bir təbəssüm var. Sayı minlərlə ölçülən "onlar", deyəsən, rəhbərliyin doqquzun yarısına vəd etdiyi ilk görüşə vaxtından xeyli əvvəl gəlmişlər. Dəstə-dəstə, topa-topa, deyə-gülə, üzlərində fərəh, qürur, sevinc hissləri ilə universitetin dörd qütbündən həyətə - vəd olunmuş görüş yerinə axışırlar. Onların hərəsinin bir adı, hərəsinin bir soyadı var. Lakin hamısını birləşdirən, ürəklərinə təpər, çöhrələrinə sevinc bəxş edən ümumi bir adı da var: tələbə - Azərbaycanımızın ürəyi, qürur yeri olan Bakı Dövlət Universitetinin tələbəsi. Onların bir çoxu: ikinci, üçüncü, dördüncü kurs tələbələri bu adı, bu statusu ötən il, ondan qabaqkı illərdə qazanmışlar. Lakin üzlərindən, gözlərindən təbəssüm oxunan bu gənclərin böyük bir qrupu tələbə statusunu lap təzəcə əldə ediblər, elə lap avqust ayında.**

Bu gün sentyabrın on beşidir. Ölkədə bilik bayramıdır, dərs ilinin ilk günüdür. Arzuları, diləkləri aşıb-daşan birinci kurs tələbələri onlara vəd olunan görüşün həsrəti ilə universitetin səliqəli, geniş meydanına axışırlar. - Rektorla görüş var, - deyirlər. Rektor, universitet rəhbərliyi onların görüşünə gələcək. Orta məktəbdən, isti siniflərdən, üzlərinin, gözlərinin on ildə öyrəşdiyi əziz müəllimlərindən təzəcə ayrılan və təzəcə birinci kurs tələbəsi adlanan bu gənclər indi uşaqlığın son gününü yaşayırlar. Universitet həyətindən universitet həyatına qədəm qoyurlar. Hələ "rektor", "prorektor", "dekan", "professor" kimi alınma sözlərlə dolu bir məkanda nə bu sözlərin semantikasını bilirlər, nə universitet həyatının məzmunundan xəbərləri var. Onlara bircə şey məlumdur: yeni həyatın, bütöv bir ömrün ilk mərhələsi bu andan başlayır: universitet həyatından.

Hamı yığışıb. Fakültələrin adı yazılmış lövhələrlə dayanıblar. Səbirsiz baxışlar universitetin möhtəşəm giriş qapısının üstündəki eyvana dikilib. Bilirlər ki, indi onların görüşünə gələn rəhbərlik bu eyvana çıxacaq, görüş bu nöqtədən başlayacaq. Saat düz doqquzda rektor başda olmaqla bir dəstə adam görünür. Yuxarı kurs tələbələri təzəcə tanış olduqları birincilərə yavaş səslə şərhlər verirlər: "Bax, o qabaqda, kürsüyə yaxınlaşan Abel müəllimdir, arxadakılar prorektorlar, dekanlardır..."

Universitetin rektoru, akademik Abel Məhərrəmov tribunaya yaxınlaşır. Birinci kurs tələbələrinin çoxu onu Milli Məclisdən, teleefirdən tanıyır. Bir-birinə onun ictimai mühitdə gördükləri məqamlarından məlumat verirlər. Amma Abel müəllimin nitqi mitinqə bir sakitlik gətirir. O, əvvəlcə hamını 15 sentyabr Bilik günü münasibətilə təbrik edir və birinci kurs tələbələrinə, onların yanında qürurla dayanmış valideynlərinə müraciət edir:

- Əziz birinci kurs tələbələri, hörmətli valideynlər! Ümummilli lider Heydər Əliyevin "Azərbaycan xalqının milli sərvəti" adlandırdığı və mövcud olduğu 91 il ərzində xalqımızın maariflənməsində, milli təfəkkürünün, milli özünüdərkinin, ziyalı təbəqəsinin formalaşmasında müstəsna rol oynayan Bakı Dövlət Universitetinə daxil olmağınız münasibətilə hər birinizi ürəkdən təbrik edirəm. Daxil olduğunuz universitet təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin ilk dünyəvi ali məktəbidir...



Abel müəllimin çıxışından tələbələrə məlum olur ki, respublikamızda 52 universitet var. Bunlardan 38-i dövlət, 14-ü özəl ali məktəbdir. Ancaq bu il respublika ali məktəblərinə qəbul olan tələbələrin hər 8 nəfərindən biri, yəni 12 faizi Bakı Dövlət Universitetinə daxil olmuşdur. Belə xoşbəxt gənclərin sayı 3556 nəfərdir. Bu tələbələrdən 318 nəfəri 600-dən yuxarı bal toplamış və 12 nəfəri Prezident təqaüdçüsüdür.

- Bu, yalnız kəmiyyət göstəricisi deyil, həm də keyfiyyət göstəricisinin nümunəsidir. Dünyada mövcud olan yüz minədək universitetdən yalnız 19 min 200-ü rəsmi olaraq YUNESKO tərəfindən qəbul edilmiş, onlardan 12 min universitet ali təhsil müəssisələrinin reytinqini müəyyənləşdirən dünyanın ən nüfuzlu beynəlxalq qurumlarının siyahısına düşmüşdür. Bu günlərdə həmin 12 min universitet arasından dünyanın ən nüfuzlu 700 universitetinin adı açıqlanmış və sevindirici haldır ki, həmin siyahıda Bakı Dövlət Universiteti də yer tutmuşdur. Əgər nəzərə alsaq ki, təkcə respublikamızdan deyil, bütün regiondan yalnız bir neçə universitet bu nüfuzlu siyahıya düşə bilmişdir, onda sizin məsuliyyətiniz bir qədər də artmış olur. Çünki təkcə universitetimizin deyil, həm də xalqımızın, ölkəmizin gələcəyi sizin əlinizdədir. Bu gün respublikamızın iqtisadi və siyasi sahədə əldə etdiyi uğurları, beynəlxalq nüfuzu qoruyub saxlamaq və inkişaf etdirmək sizin əlinizdədir. Çalışın, sizə yaradılan şəraitdən səmərəli istifadə edərək öncə özünüzü, sonra isə sizin intellektinizə arxalanacaq alimlərimizin gücünü, sizə inanan valideynlərinizin, ən əsası da universitetimizin etimadını doğruldasınız!

Rektorun bu emosional sözlərindən sonra tələbələrin sevinc nidaları, alqış səsləri universitetin həyətinə yayılır. Rektor üzünü yenidən, bu dəfə birbaşa tələbələrə tutur:

- Hər bir xalqın, dövlətin qüdrəti heç də onun yeraltı və yerüstü sərvəti ilə ölçülmür. Qüdrətli, inkişaf etmiş dövlətlərə onun iqtisadi potensialı ilə yanaşı, intellekt kapitalına görə qiymət verilir. Respublikamızda həyata keçirilən iqtisadi, sosial islahatlarla birlikdə elmin və təhsilin inkişafı ilə bağlı qəbul olunan fərman və sərəncamlar bir daha sübut edir ki, yeritdiyi daxili və xarici siyasətlə beynəlxalq aləmdə özünə böyük hörmət və nüfuz qazanan Prezidentimiz cənab İlham Əliyevin "Biz iqtisadi potensialımızı intellekt kapitalına çevirməliyik" devizi ilə təhsilin Avropa standartlarına uyğunlaşdırılması, onun maddi-texniki bazasının inkişafı ilə bağlı qarşıya qoyduğu məqsədlər artıq reallığa çevrilməkdə, gerçək həllini tapmaqdadır. Respublikamızın bütün guşələrində yeni məktəblərin, təhsil ocaqlarının tikilib istifadəyə verilməsi, informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətləri ilə təchiz olunması bir daha sübut edir ki, vətənimizdə kamil şəxsiyyətin, hərtərəfli biliklərə malik vətəndaşların formalaşması üçün kifayət qədər yüksək imkanlar yaradılır. Yüzlərcə gəncin Avropanın qabaqcıl təhsil ocaqlarına göndərilməsi, təhsil islahatlarının uğurla həyata keçirilməsi, "2011-2021-ci illərdə Azərbaycan Təhsilinin İnkişafı üzrə Milli Strategiya"nın hazırlanması kimi çox dəyərli sərəncamların Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanması özünəməxsus təhsil və tədris ənənələri olan ölkəmizin işıqlı gələcəyindən xəbər verir.

Rektor tələbələri yeni tədris ili münasibətilə bir daha təbrik edir, onlara uğurlar arzulayır.

Daha sonra digər rəhbər işçilər çıxış edirlər. Onların da nitqində birinci kurs tələbələrinə ünvanlanan tövsiyələr, xeyir-dua var.

Görüş sona yetir və hər kəs öz fakültəsinə, öz auditoriyasına yönəlir. Tələbələri yeni qayğılar, yeni müəllimləri ilə görüşlər gözləyir.

Jurnalistika fakültəsinin birinci kurs tələbələri isə professor, dekan Yalçın Əlizadə başda olmaqla Fəxri xiyabana yola düşürlər. Onlar milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin qəbrini ziyarət etməyə gedirlər. Bu, bir ənənədir. Neçə illərdir ki, fakültənin birinci kurs tələbələri ilk dərslərini Həsən bəy Zərdabinin məzarı önündə keçirlər.

Hamı toplaşıb: tələbələr, müəllimlər, valideynlər. Dekan, professor Y.Əlizadə jurnalist tələbələrə ilk dərsin Zərdabi məzarının önündə keçirilməsi ənənəsinin mahiyyətindən danışır:

- Biz bu qəbrin qarşısında jurnalistikaya sədaqət andı içirik. Milli mətbuatımızın banisindən gələn vətəndaşlıq, maarifçilik, peşəkarlıq ənənələrini davam etdirəcəyimizə söz vermək üçün bura yığışmışıq. Bu, sizin ilk dərsinizdir. Auditoriyalarda jurnalistikamızın tarixi ənənələrini, müasir jurnalistikamızın yaradıcılıq prinsiplərini öyrənəcəksiniz. Lakin hər şey Zərdabi ruhuna, Zərdabi ustalığına hörmətdən başlayır.

Fakültənin digər müəllimləri: Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, professor C.Məmmədli və Mətbuat tarixi kafedrasının müdiri, professor Ş.Vəliyev tələbə jurnalistlərə mətbuatımızın ənənələrindən və müasir durumundan söhbət açırlar.

Bu görüş də sona yetir, yenidən hamı universitetə qayıdır.

...Dəhlizlərdə, auditoriyalarda sakitlik var. Mühazirə müəllimlərinin səsi, tələbələrin suallara cavab sözləri bu sakitliyə bəzən ara verir. Auditoriyalarda birinci kurs tələbələrinin həyəcanla gözlədiyi anlar yaşanır: Bakı Dövlət Universitetinin yaraşıqlı, işıqlı otaqlarında dərs gedir.

**Könül NİFTƏLİYEVA,**
*Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müəllimi, fəlsəfə doktoru*

# Prezident təqaüdçülərimiz

**Hər il olduğu kimi, bu il də ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayaraq Prezident təqaüdçüsü adını qazanmış bəzi gənclər Bakı Dövlət Universitetini seçiblər. "Bakı Universiteti" qəzeti həmin tələbələri yaxından tanıtmaq məqsədilə onlar haqqında yazını təqdim edir:**



**Fətullayev Orxan** 1994-cü ildə Bakı şəhərində anadan olub. 2000-ci ildə Suraxanı rayon 279 №-li orta məktəbin 1-ci sinfinə daxil olub. Orxan öz savad və bacarığı ilə hələ orta məktəb illərində fərqlənib. Orta məktəbi "əla" qiymətlərlə bitirib. Odur ki, Orxan 2011-ci ildə I ixtisas qrupu üzrə yüksək bilik nümayiş etdirərək 685 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat və kibernetika fakültəsinə qəbul olmuşdur.

***Orxan öz sevincini, arzu və fikirlərini bizlərlə də bölüşdü:***

- Mən orta məktəb dərslərimi yaxşı oxuyurdum. Ancaq universitetə hazırlaşarkən əlavə məşğələlərə də gedirdim. Buna baxmayaraq, mənə elə gəlir ki, belə yüksəl bal toplamağımın təməlini elə orta məktəbdə dərsləri yaxşı oxuyarkən qoymuşdum. Əslində mən dərslərimə elə də çox vaxt ayırmırdım, istirahət də edirdim. Ancaq ümumi düşüncəmi, təfəkkürümü imtahanlara hazır hiss edirdim. Qəbul imtahanında sualların əksəriyyəti, mənə elə gəlir ki, məntiqi təfəkkürə və dünyagörüşünə əsaslanırdı. Bu sualları təkcə dərs vəsaiti oxumaqla cavablandırmaq olmazdı. İmtahana hazırlaşdığım zaman üzərimdə valideynlərimin nəzarəti çox güclü idi. Mən, ilk növbədə, öz valideynlərimə təşəkkürümü bildirmək istəyirəm. Daha sonra isə əməyi keçən bütün müəllimlərimə, dostlarıma minnətdaram. Mən özümə inanırdım. Bilirdim ki, imtahanda yüksək nəticə əldə edəcəyəm. Çalışacağam ki, universitetdə təhsili daha da mükəmməlləşdirim, savadlı bir kadr kimi yetişim, Vətənimə, xalqıma xidmət edim.

* * *

**Məmmədov Xəyal** 1993-cü ildə Bakı şəhərində anadan olub. 2000-ci ildə Maştağa qəsəbəsindəki 293 №-li orta məktəbin 1-ci sinfinə daxil olub. Daha sonra orta təhsilini 289 №-li "Zəngi" liseyində davam etdirib. Xəyal öz savad və bacarığı ilə hələ orta məktəb illərində fərqlənib. Belə ki, məktəbin ictimai işlərində yaxından iştirak edib, bir sıra olimpiadalarda nailiyyətlər əldə edib. O, həmçinin bir sıra xarici dilləri, xüsusən ingilis dilini mükəmməl bilir. Orta məktəbi "əla" qiymətlərlə bitirib. Odur ki, Xəyal 2011-ci ildə II ixtisas qrupu üzrə yüksək bilik nümayiş etdirərək 682 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinə qəbul olub.



***Bu günlərdə redaksiyamızın qonağı olan Xəyal arzu və istəklərini bizlərlə də bölüşdü:***

- Mən yüksək bal topladığıma görə, ilk növbədə, valideynlərimə, daha sonra isə müəllimlərimə borcluyam. Onlar məqsədimə çatmağım üçün əllərindən gələni əsirgəmədilər. Təbii ki, mən öz gücümə, biliyimə və məsuliyyətimə də inanmışam. Mənə elə gəlir ki, yüksək bal toplamaq üçün insan, ilk növbədə, özünə güvənməlidir. Məntiqini və dünyagörüşünü inkişaf etdirməlidir. Kənar təsirlərdən uzaq olmalıdır. Məsələn, dərsləri ilə daha çox məşğul olmalı, mümkün qədər əlavə dərs vəsaitlərindən istifadə etməli və vaxtını bu məqsəddən uzaq olan işlərə ayırmamalıdır. Bu ixtisasa yiyələnmək mənim çoxdankı arzum idi. Çox sevinirəm ki, Bakı Dövlət Universitetinin tələbəsi adını qazanmışam. Bundan sonra da var gücümlə çalışacağam ki, seçdiyim ixtisasa daha dərindən yiyələnim və ölkəmə, xalqıma bacardığım qədər xidmət edim.

* * *



**Həsənli Orxan** 1993-cü ildə Bakı şəhərində anadan olub. 2000-ci ildə Nərimanov rayon 193 №-li orta məktəbin 1-ci sinfinə daxil olub. Daha sonra orta təhsilini "Gənc istedadlar" liseyində davam etdirib. Orxan öz savad və bacarığı ilə hələ orta məktəb illərində fərqlənib. Belə ki, məktəbin ictimai işlərində yaxından iştirak edib, bir sıra olimpiadalarda, virtual yarışlarda nailiyyətlər əldə edib. Orta məktəbi "əla" qiymətlərlə bitirib. Odur ki, Orxan 2011-ci ildə I ixtisas qrupu üzrə yüksək bilik nümayiş etdirərək 675 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat və kibernetika fakültəsinə qəbul olub.

***Redaksiyamızın qonağı olan Orxan öz sevincini bizlərlə də paylaşdı:***

- Ailəmizdə mənim təhsilimə nəzarət çox güclü idi. Əslində orta məktəbdə və liseydəki hazırlığım, mənə elə gəlir ki, yüksək bal toplamağıma yetərli idi. Ancaq müəllimlərimin təkidi ilə əlavə məşğələlərə də gedirdim. Mən özümə çox inanırdım, hətta hədəfim 700 bal idi. Yüksək bal topladığım üçün əvvəl öz valideynlərimə, daha sonra müəllimlərimə təşəkkürümü bildirirəm. Yaxın dostlarım Rövşən və Sevdanı da unutmaq istəmirəm. Onlara da öz təşəkkürümü bildirirəm. Çalışacağam ki, universitetin imkanlarından bacardığım qədər istifadə edim, biliyimi daha da təkmilləşdirim. Düşünürəm ki, gələcəkdə təhsilimi xarici universitetlərin birində davam edirəcəyəm.

✍ Kəramət Böyükçöl

# Birincilərlə görüş

**Tələbə Həmkarlar İttifaqı Komitəsi birinci kurs tələbələri ilə görüş keçirib. Tədbiri giriş sözü ilə açan sədr Daşqın Qənbərov iştirakçıları Bakı Dövlət Universitetinin tələbəsi adını qazanmaları münasibəti ilə təbrik edib. Sonra komitənin fəaliyyəti haqqında geniş məlumat verən Daşqın Qənbərov birinci kurs tələbələrini rəhbərlik etdiyi qurumla əməkdaşlıq etməyə və bu sahədə fəal olmağa dəvət edib.**

**Daha sonra fakültə Həmkarlar İttifaqının sədrlərindən Elməddin Əmirov və Qabil Ədilova söz verilib.**

**Tədbirin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb.**



# Sanma ki, mən səni unudacağam...

Hər il oktyabrın 5-i dünyada Beynəlxalq Müəllimlər Günü kimi qeyd edilir. Məhz bu gün bütün dünyada olduğu kimi, ölkəmizdə də çoxminli müəllim ordusu öz peşə bayramının sevincini yaşayır.

Hər bir insanın qəlbində müəllimin özünəməxsus yeri var. Xüsusilə əlindən tutub yazı yazmağı, oxumağı öyrədən ilk müəllimini kim unudar? Həyatın sonrakı mərhələsində - düzgün peşə seçimində, həyatda doğru mövqe qazanmaqda əhəmiyyətli rolu olan müəllimlərin yeri bir başqadır. Elə bu səbəbdəndir ki, illər ötsə, zaman keçsə də, bu ad bizim qəlbimizdə öz uca yerini həmişə qoruyub saxlayır:

*Müəllim, keçsə də neçə qış, bahar,*
*Sanma ki, mən səni unudacağam.*
*Mən haraya getsəm, harada olsam,*
*Qəlbimlə yanına qayıdacağam.*

Müəllimlik dünyada ən çətin, ən gözəl və ən əsası, şərəfli peşədir. Hər bir müəllim şagirdlərinin dərin və hərtərəfli bilik almaları üçün çalışır və bu yolda bütün bacarığını sərf edir.

*Ey hörmətli müəllim,*
*Hər könüldə yerin var.*
*Hər kənddə, hər şəhərdə*
*Sənin meyvələrin var.*

Valideynlə bərabər, uşağın hər cür şıltaqlığına, əziyyətinə dözmək, kədəri ilə kədərlənib, sevinci ilə sevinmək müəllimlərin üzərinə düşən ağır yükdür.

*Əziz müəllimim, mənə dünyada,*
*Hər gözəl adəti sən öyrətmisən.*
*Bağlı qapıları açıb üzümə,*
*Elmə səyahəti sən öyrətmisən.*

Müəllimlər yeni cəmiyyət quruculuğunun memarlarıdır. Hər birimizin vətənə layiqli insan kimi yetişməyimizdə müəllimlərimizin əvəzsiz xidməti olmuşdur. Məhz biz gənclərin də tələbə adı qazanmasında müəllimlərin böyük rolu var. Əbəs yerə demirlər: "Gələcək gənclərin, gənclər isə müəllimlərin əsəridir".



Ümummilli liderimiz Heydər Əliyevin müəllimlər haqqında cox gözəl sözləri var. O deyirdi: "Hər birimizdə müəllimin hərarəti qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmişdir və öyrədir".

Bütün müəllimlərin bayramını təbrik edir onlara cansağlığı, uzun ömür arzulayıram. Bayramınız mübarək!..

✍ **Leyla İsmiyeva**
**Filologiya fakültəsinin II kurs tələbəsi**

# ETİBARSIZDIR

Coğrafiya fakültəsinin III kurs tələbəsi Mustafayeva Ülviyyə Aydın qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Coğrafiya fakültəsinin IV kurs tələbəsi Məmmədov Tural Rasim oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Fizika fakültəsinin IV kurs tələbəsi Eminov Ülfət Dərdayıl oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Ekologiya və torpaqşünaslıq fakültəsinin IV kurs tələbəsi İbişov İmdad Ehtibar oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Ekologiya və torpaqşünaslıq fakültəsinin II kurs tələbəsi Mahmudova Aygül Feyruz qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Ekologiya və torpaqşünaslıq fakültəsinin IV kurs tələbəsi Abdullayeva Nərmin Hafiz qızına məxsus qiymət kitabaçası itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin III kurs tələbəsi Məmmədov Yaqub Mehman oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin III kurs tələbəsi Babayev Fariz Elçin oğluna məxsus tələbə vəsiqəsi və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin II kurs tələbəsi Səfərli Səfər Həkimxan oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Jurnalistika fakültəsinin III kurs tələbəsi Əhmədli Ruzi Şahin oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Tarix fakültəsinin II kurs tələbəsi Həsənova Səkinə Mahir qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

İlahiyyat fakültəsinin III kurs tələbəsi Mirizadə Mirsəccad Nurəddin oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

İlahiyyat fakültəsinin III kurs tələbəsi Həsənov Elvin Rəşid oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Sosial elmlər və psixologiya fakültəsinin II kurs tələbəsi Həsənli Ramil Rasim oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Mexanika-riyaziyyat fakültəsinin IV kurs tələbəsi Nəsbiyeva Nərmin Eynulla qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Kimya fakültəsinin IV kurs tələbəsi Quliyeva Çinarə Namiq qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi Qasımova Nəzifə İnayət qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Ekologiya və torpaqşünaslıq fakültəsinin II kurs tələbəsi Gülmalıyev Elnur Müslüm oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin III kurs tələbəsi Vəliyev Kamran Yaqub oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Fizika fakültəsinin II kurs tələbəsi Əlizadə Aygün Fikrət qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Coğrafiya fakültəsinin IV kurs tələbəsi Məmmədov Tural Rasim oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Jurnalistika fakültəsinin III kurs tələbəsi Məhərrəmov Şamil Şakir oğluna məxsus qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

* * *

Ekologiya vı torpaqşünaslıq fakültəsinin IV kurs tələbəsi Allahyarlı Mirelvin Mirfəttah oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Coğrafiya fakültəsinin II kurs tələbəsi Fərəcbəyli Rövşanə Ənvər qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs tələbəsi İmanov Sovet Habil oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin II kurs tələbəsi Hacılı Jalə Nüsrət qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Mexanika-riyaziyyat fakültəsinin IV kurs tələbəsi Süleymanov Əli Əli oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi Şirinli Fərhad Yusif oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Geologiya fakültəsinin II kurs tələbəsi Zeynallı İlkin Elçin oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin II kurs tələbəsi Cəfərli Əziz Mübariz oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin III kurs tələbəsi Musayev Tural Səmid oğluna tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin IV kurs tələbəsi Nəbiyev Elvin Ramiz oğluna tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Filalogiya fakültəsinin IV kurs tələbəsi Fərzəliyev Zahid Malik oğluna tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

№ 11 (1419) 05 oktyabr 2011-ci il

SON SƏHİFƏ

## Əməkdaşların və tələbələrin nəzərinə!

*Rektor, akademik Abel Məhərrəmova suallarınızı sual@bsu.az elektron ünvanına göndərə bilərsiniz. Cavablarınız bsu.edu.az səhifəsində yerləşdiriləcəkdir.*

***

*Xüsusi istedada, jurnalistlik qabiliyyətinə, yaradıcılıq bacarığına maliksinizsə və tanınmaq istəyirsinizsə "Bakı Universiteti" qəzetinə müraciət edin.*

# Özfəaliyyət kollektivlərinin uğurları

Bakı Dövlət Universitetinin özfəaliyyət dərnəkləri uzun illərdir ki, fəaliyyət göstərir. Klub müdiri Bayram Məmmədov rəhbərlik etdiyi dərnəklərin fəaliyyəti, qazandığı uğurlar barədə universitet kollektivini məlumatlandırmaq məqsədilə suallarımızı cavablandırdı. Onun sözlərindən məlum oldu ki, klubun nəzdində bir sıra qruplar fəaliyyət göstərir: "Səda" milli rəqs qrupu, breyk-dans qrupu, xor kollektivi, şən və hazırcavablar klubu və instrumental ansambl. Özfəaliyyət kollektivləri tələbələri milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət ruhunda tərbiyə etmək, onların bədii-estetik səviyyəsini yüksəltmək, mədəni həyat tərzinin formalaşdırılması işinə kömək göstərmək, incəsənət və mədəniyyətimizin ayrı-ayrı sənət növləri üzrə istedadlı gəncləri üzə çıxarmaq, onların qabiliyyətlərini inkişaf etdirmək istiqamətində böyük rol oynamışdır. Eyni zamanda tələbələrin asudə vaxtlarının səmərəli və mənalı təşkilində, tələbə gənclərin cəmiyyət tərəfindən qəbul edilməyən mənfi hallara meylinin qarşısının alınmasında müsbət təsir göstərir.



"Səda" milli rəqs qrupu Türkiyənin Yalova şəhərində keçirilən beynəlxalq rəqs festivalında




Özfəaliyyət kollektivləri universitetin tədbirlərində çıxış etməklə yanaşı bir sıra universitetlərarası və beynəlxalq yarışların da iştirakçısı olmuş, Bakı Dövlət Universitetini uğurla təmsil etmişdir. Əsasən tələbə gənclərin təmsil olunduğu özfəaliyyət kollektivlərinin son illərdə bir-birinin ardınca qazanmış olduğu nailiyyətlərin əsasında BDU-nun rektoru, akademik Abel Məhərrəmovun xüsusi diqqət və qayğısı dayanır. Belə ki, özfəaliyyət kollektivləri Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Komitəsinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə təşəbbüsü ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci və 88-ci ildönümünə həsr olunmuş universitetlərarası bədii yaradıcılıq festivalında uğurla çıxış edərək diplom və mükafatlara layiq görülmüşdür. Mədəniyyət müəssisələrində fəaliyyət göstərən bədii özfəaliyyət kollektivlərinin inkişafı, mədəni-maarif müəssisələrinin işinin daha da mükəmməlləşdirilməsi, Azərbaycan milli musiqisinin, folklor və rəqs janrının inkişafı məqsədilə 2010 və 2011-ci illərdə keçirilən bu festivalda "Səda" milli rəqs qrupu I yerə, breyk-dans qrupu isə 2010-cu ildə I, 2011-ci ildə isə II yerə layiq görülmüşdür. "Səda" milli rəqs qrupunun rəhbəri Zərifə Məmmədovanın və oğlanlar rəqs qrupunun müəllimi Yusif Məmmədovun bu sahədə yüksək bacarığı və peşəkarlığı istedadlı tələbə gəncləri daha ruhlandırmışdır. 2010-cu ildə "Səda" milli rəqs qrupu Türkiyənin Yalova şəhərində keçirilən beynəlxalq rəqs festivalında da uğurla çıxış edərək diplom və hədiyyələrə layiq görülmüşdür.

2011-ci ildə bu kollektivin çıxışları daha da genişlənmişdir. Bu ilin avqust ayında Ankarada keçirilən beynəlxalq milli rəqs festivalında da "Səda" milli rəqs qrupu 40 ölkə arasında II yerə layiq görülmüşdür. Onu da qeyd edək ki, bu yarışlarda iştirak edən bütün kollektivlər öz ölkələrini təmsil etmiş, yarışlara peşəkar səviyyədə qatılmışlar. "Səda" milli rəqs qrupu isə özfəaliyyət olaraq iştirak etmiş, Bakı Dövlət Universitetinin timsalında Azərbaycanımızı yüksək səviyyədə təmsil edərək II yerə layiq görülmüşdür.

Redaksiyamız adından tələbə gənclərin bu uğurlarına ürəkdən sevinir, Bakı Dövlət Universitetinin adını həmişə ucadan uca tutduqları üçün onlara dərin təşəkkürümüzü bildirir və gələcək işlərində daha böyük uğurlar və müvəffəqiyyətlər arzulayırıq.

✍ *Kəramət Böyükçöl*

## İBRƏTAMİZ HEKAYƏ

Qaranlıq bir otaqda dörd şam sakitcə yanırdı. Otaqda səssizlik olduğu üçün şamların pıçıltısı aydınca eşidilirdi. Qapının arxasında dayanan uşaq diqqətlə onların söhbətinə qulaq asırdı.

Birinci şam:

- Mən sülhəm. Ancaq heç kim mənim yanmağıma kömək etmək istəmir. Nə qədər yanmaq istəsəm də, bilirəm ki, sönəcəyəm, - dedi və söndü.

İkinci şam:

- Mən səmimiyyətəm. Ancaq, deyəsən, heç kim bir-birinə qarşı səmimi olmur, mənim də yanmağımın bir mənası qalmadı, - deyərək söndü və qaranlığa qərq oldu.

Üçüncü şam:

- Mən sevgiyəm. Ancaq insanlar məni özlərindən uzaqlaşdırmağa çalışırlar. Onlar artıq öz yaxınlarını da sevmirlər, - deyərək bir göz qırpımında sönüb getdi.

Pıçıltıların kəsildiyini görən uşaq içəri keçdi. Sönmüş şamlara baxaraq hönkür-hönkür ağlamağa başladı. Dördüncü şam yumşaq bir səslə uşağa təskinlik verərək:

- Nə qədər ki mən yanıram, heç bir şam sönə bilməz. Çünki mən ümidəm! - dedi.

Gözləri parıldayan uşaq ümid şamını götürərək o biri şamları yandırdı.

İçinizdəki ümid şamını söndürməyin!

# BDU kitabxanası - yeni nəşrlər

### "Dağlık Karabağ işgalden önce ve sonra"




Türkiyədə Ermәni Araşdırmaları Elmi Mərkəzinin rəhbəri, fəlsəfə doktoru Qafar Çaxmaqlının "Dağlık Karabağ işgalden önce ve sonra" adlı kitabı nəşr olunub. Kitab Yalova Əsassız erməni İddiaları ilə Mücadilə Dərnəyinin və Yalova bələdiyyəsinin dəstəyi ilə işıq üzü görüb.

Kitabın ilk bölümündə Dağlıq Qarabağ coğrafi bölgəsi, bu toponimin mənşəyi, meydana gəlməsi, tarixi, Rusiya-İran müharibələri, ermənilərin bölgəyə köçürülməsi kimi məsələlər yer alıb. Kitabda ermənilərin Dağlıq Qarabağı Azərbaycandan qoparmaq istəkləri və bununla bağlı ötən əsrdə həyata keçirdikləri soyqırım, etnik təmizləmələr və siyasi sahədə fəaliyyətləri barədə məlumat verilib. Sənədlər, real faktlar və stenoqramlarla bu proseslər anladılıb. Kitabçada həmçinin Dağlıq Qarabağa köçürülmüş ermənilərin hazırkı durumlarından da bəhs edilib.

### "Azərbaycan qoruqlarının ekoloji problemləri"

Ekologiya və torpaqşünaslıq fakültəsinin dosenti Tahir İbrahimovun "Azərbaycan qoruqlarının ekoloji problemləri" (I hissə) kitabı yeni nəşrlər silsiləsindəndir. Kitab müəllifin müxtəlif illərdə (beynəlxalq, ümumittifaq və respublika elmi konfranslarında materiallarında) çap etdirdiyi elmi məqalə və tezislərin toplusudur. Əsasən Azərbaycan qoruqlarının




ekoloji problemlərinə həsr olunmuş həmin məqalələr ayrı-ayrı qoruq və yasaqlıqların özünəməxsus və zəruri olan tədbirlərdən bəhs etdiyi və onların bəzilərinin kiril əlifbası ilə yazıldığı nəzərə alınaraq, yenidən tərtib olunmuşdur. Bu kitab coğrafiyaçılar, ekoloqlar, ali məktəb tələbələri və magistrantlar üçün nəzərdə tutulmuşdur.

### "Millətim"kitabı

Filologiya fakültəsinin professoru Ramiz Əskərin tatarcadan tərcümə etdiyi Abdulla Tukayın "Millətim" kitabı işıq üzü görüb. Kitabda bu il anadan olmasının 125 illiyi tamam olan böyük tatar şairi, ümumtürk ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Tukayın seçilmiş şeirləri tatarca orijinalları ilə birlikdə verilmişdir.

Kitab 31 mart - 4 aprel 2009-cu ildə İstanbulda TürkSOY tərəfindən təşkil olunan "Türk ləhcələri arasında uyğunlaşdırma çalışmalarının bugünkü durumu və qarşılaşılan problemlər" mövzusunda beynəlxalq simpoziumun tövsiyələrinə və yekun bəyannaməsinə uyğun olaraq nəşr edilir.

### "Dağ cığırından başlanan yol"

Filologiya üzrə fəlsəfə doktoru, dosent Mətanət Həsənovanın (Saraçlı) "Dağ cığırından başlanan yol" kitabı sayca dördüncü kitabıdır. Kitabda BDU-nun professoru, filologiya elmləri




doktoru, "Şöhrət" ordenli əməkdar müəllim, "Qızıl qələm" mükafatı laureatı Qara Namazovun ömür yoluna qısa nəzər salınır, pofessorun bədii və elmi yaradıcılığı bioqrafik oçerk səciyyəsində gözdən keçirilir. Burada müəllif yaddaşın izi ilə müxtəlif zaman kəsiklərinə müraciət edərək o anları oxucusuna yaşatdığı kimi, müasir dövrümüzə qayıtmağı da bacarır.

Kitabda Klassik Azərbaycan ədəbiyyatı kafedrasının professoru Q.Namazovun Azərbaycanın görkəmli ədəbiyyatçıları və elm adamları haqqında xatirələri verilmiş, eyni zamanda həmkarlarının onun haqqında düşüncələri də yer almışdır.

### "Koroğlu" dastanının onomastik sözlüyü"




Filologiya elmləri üzrə fəlsəfə doktoru Sevil Ağabəylinin "Koroğlu" dastanının onomastik sözlüyü" kitabı işıq üzü görmüşdür. "Koroğlu" dastanının Azərbaycan, türkmən və qısmən türk variantlarının müxtəlif nəşrlərindən seçilmiş onomastik dil vahidləri qruplaşdırılaraq kitabın "Antroponimlər", "Teonim", "Kultonimlər", "Hagionimlər", "Etnonimlər", "Toponimlər", "Anemonim", "Hidronimlər", "Zoonimlər", "Mifonimlər", "Klematonimlər" bölmələrində verilmişdir. Tədqiqatçılar Azərbaycan dilinin tarixinin, türk dillərinin qarşılıqlı əlaqəsinin araşdırılmasında və müxtəlif növlü sözlüklərin tərtibində kitabdan dəyərli bir mənbə kimi istifadə edə bilərlər.

✍ *Aynur Qurbanqızı*

## Doğum tarixi peşə seçmənə təsir göstərir



**İnsanın doğulduğu tarix onun hansı peşəyə sahib olmasına təsir edən amillərdən biridir**

Bu faktlar İngiltərə Milli Statistika komitəsi tərəfindən aparılan araşdırma zamanı aşkar olunub. Araşdırmanın nəticəsini sizlərə təqdim edirik.

**- Yanvar**

Bu ayda dünyaya gələn şəxslər həkim və təhsil işçisi olmağa meyilli olurlar.

**- Fevral**

Sənətçi və ya yol polisi olma istəyirlər. Fizik də olma ehtimallarıda var.

**- Mart**

Pilot ya da musiqiçi olmağa meyilli olurlar.

**- Aprel**

Bu ayda dünyaya gələnlərin diktator olma ehtimalları həddən artıq çox yüksəkdir. Dünyanın ən qəddar diktatorları hesab olunan Hitler və Səddam Hüseyn bu ayda dünyaya gəliblər

**- May**

May ayında dünyaya gələn insanlar siyasət sahəsində bacarıqlı olurlar.

**- İyun**

Adətən idarəçilik işləri ilə məşğul olurlar.

**- İyul**

İnşaatçı, maşinist və artist olmağa meyilli olurlar.

**- Avqust**

Bu ayda dünyaya gələnlər prezident olmağa meyilli olurlar. ABŞ-ın hazırki prezidenti Barak Obama və eks prezidenti Bill Klinton bu ayda dünyaya gəliblər

**- Sentyabr**

Alim, idmançı olmaq istəyirlər.

**- Oktyabr**

Bu ayda dünyaya gələn şəxslər adətən uzunömürlü olurlar. Eyni halda maraqlı peşələrədə meyil edirlər.

**- Noyabr**

Bu ayda dünyaya gələnlərin insanları qətlə yetirmək riskləri böyükdür.

**- Dekabr**

Dekabr ayında dünyaya gələn şəxslər adətən stomatoloq olmaq istəyirlər.

Qeyd edək ki, deyilən bu məsələlər baş verə biləcək mütləq hal deyil. Bu araşdırma insanın hansı peşəyə daha çox meyilli olmasının göstərijisidir. Ola bilsin ki, hər hansı bir şəxs deyilən aylarda dünyaya gəlməsinə baxmayaraq, tam olaraq başqa bir peşəyə sahib olsun. İnsanın gələcək həyatı onun hazırki gördüyü işlərdən və təyin etdiyi hədəflərdən asılıdır.

✍ *Aysel Məmmədova*

**Baş redaktor:** Anzulə ƏMİROVA

**Redaksiya heyəti:** Solmaz Babaşova, Aynur Qurbanqızı, Tamilla Müslümova, Salam Muxtarov, Kəramət Böyükçöl

**Redaksiyanın ünvanı:** Bakı, akad. Zahid Xəlilov küç. 23, BDU-nun əsas binası, III mərtəbə
**Tel.:** 439-03-64, 439-04-78
e-mail: BU_press@bsu.az

**Sifariş:** 162
**Tiraj:** 2000

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır